# Həyat bilgisi 1

MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT







# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

Aybəniz İbrahimova
Saməddin İbrahimov

# Həyat bilgisi 1

Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün
"Həyat bilgisi" fənni üzrə

## MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
24.05.2016-cı il tarixli 354 nömrəli əmri ilə
təsdiq edilmişdir.

ŞƏRQ-QƏRB
BAKI 2016

Aybəniz İbrahimova, Saməddin İbrahimov
Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün
"Həyat bilgisi" fənni üzrə müəllim üçün metodik vəsait
Bakı, "Şərq-Qərb" Nəşriyyatı, 2016, 72 səh.

ISBN 978-9952-509-05-2

Elmi redaktor:
Nizami Namazov,
biologiya üzrə fəlsəfə doktoru

Kurikulum üzrə məsləhətçi:
Elxan Cəfərov

Rəyçilər:
Afaq Əliyeva
Pəri Süleymanlı
Nailə Abdalova
Çingiz Balaxanov

Müəllim üçün metodik vəsaitlə bağlı rəy, irad və təkliflərin info@eastwest.az və derslik@edu.gov.az elektron ünvanlara göndərilməsi xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

© Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2016

## GİRİŞ

Ümumtəhsil məktəblərinin birinci sinfində istifadəyə təqdim olunan “Həyat bilgisi” dərslik komplekti dərslik və müəllim üçün metodik vəsaitdən ibarətdir. Bu komplektə daxil olan mövzular həftəlik 1, illik 34 dərs saatını əhatə etməklə ardıcıllıq, elmilik, şagirdlərin yaş səviyyəsi, çətinlik dərəcəsi nəzərə alınmış, sadədən mürəkkəbə doğru prinsipi əsasında hazırlanmışdır. Dərsliyə daxil olan mövzular **5 tədris vahidi** əsasında qruplaşdırılmışdır.

Şagird **birinci** tədris vahidində qruplaşdırılan mövzular vasitəsilə müşahidə etdiyi varlıqların mahiyyətini anladığını nümayiş etdirir, onları sadə dillə təsvir edir, sadə coğrafi obyektləri əlamətlərinə görə fərqləndirir, canlıların yaşamasını şərtləndirən amilləri sadalayır, ətraf mühitin təmiz saxlanılmasının vacibliyini sadə şəkildə şərh edir.

**İkinci** tədris vahidində qruplaşdırılan mövzular vasitəsilə insanı sosial varlıq kimi dərk etdiyini, ailədə və kollektivdə üzərinə düşən vəzifələri bildiyini, sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini, Azərbaycan Respublikasının pul nişanlarını tanıdığını nümayiş etdirir.

**Üçüncü** tədris vahidini əhatə edən mövzular vasitəsilə Azərbaycan Respublikasının dövlət rəmzlərini sadalayır, bayrağı təsvir edir, himni oxuyur. Eyni zamanda “vəzifə” və “borc” anlayışlarını dərk edir, hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir. Məktəbin daxili nizam-intizam qaydalarını və məktəbdəki hüquqlarını sadalayır.

**Dördüncü** tədris vahidinə daxil olan mövzular əsasında ünsiyyət etiketlərinə əməl edir, etiketdənkənar davranışları fərqləndirir, mənəviyyata zidd xüsusiyyətlərə münasibət bildirir, dinlər haqqında ilkin təsəvvürlərini sadə şəkildə izah edir.

**Sonuncu – beşinci** tədris vahidini əhatə edən mövzular vasitəsilə sağlam həyat tərzinin şərtlərini sadalayır, həyat və sağlamlıq üçün təhlükə törədən mənbə və obyektləri tanıyır, nəzərə alır, sadə yol hərəkəti qaydalarını izah edir, fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.

Məlumdur ki, “Həyat bilgisi” fənni hər bir şagirdin özünü bioloji, psixoloji, sosial və mənəvi tərəfləri ilə bütöv bir varlıq kimi dərk etməsi və reallaşması üçün bacarıq, dəyərlər sistemi formalaşdırmağa, onu təkmilləşdirməyə kömək edən interaktiv fəndir.

Bu baxımdan ibtidai siniflərdə “Həyat bilgisi” fənninin tədrisi aşağıdakı fənlərlə inteqrasiyanı zəruri edir:



Dərslik komplektinə daxil olan müəllim üçün metodik vəsaitdə məzmun standartlarının reallaşdırma cədvəli, illik planlaşdırma sistemli şəkildə əks olunmuşdur.

Metodik vəsaitdə həmçinin hər bir dərs saatı üçün nəzərdə tutulmuş mövzuların tədrisinə aid interaktiv dərs modelləri təqdim olunmuş və həmin dərs modellərində aşağıdakılar xüsusi nəzərə alınmışdır.

**Hər bir mövzu üçün xüsusi qiymətləndirmə meyarlarını əks etdirən cədvəl və qiymətləndirmə vasitələri də təklif olunmuşdur.**

Təqdim olunan dərslik komplektinə iş dəftəri daxil olmadığından hər bir mövzu üçün qiymətləndirmə vasitəsi kimi hazırlanan sual, tapşırıq və testlərin bir hissəsi də interaktiv dərs modellərinə əlavə olunmuşdur. Bu vasitələr həm **diaqnostik**, həm **formativ**, həm də **summativ** qiymətləndirməni reallaşdırmaq üçün nəzərdə tutulmuşdur.

Təbii ki, hər bir müəllim qiymətləndirməni həyata keçirmək üçün daha əlverişli üsul, vasitə və vaxt bölgüsündən istifadə edə bilər.



## 1-ci sinif “Həyat bilgisi” fənni üzrə məzmun standartlarının reallaşdırma cədvəli

| Tədris vahidi | Alt standartlar | Məzmun (mövzu) | Resurslar |
|---|---|---|---|
| Yaşadığımız dünya | 1.1.1. | 1. Həyat varlıqlardan ibarətdir | Dərslik, iş vərəqləri, şəkillər |
| | 1.1.2. | 2. Mən bunların adını bilirəm | Dərslik, iş vərəqləri, şəkillər, plastilin |
| | 1.2.1., 1.2.2. | 3. Dünyamız – Yer kürəsi | Dərslik, iş vərəqləri, şəkillər, videomateriallar |
| | 1.3.1. | 4. Canlı varlıqlar | Dərslik, iş vərəqləri, şəkillər |
| | 1.3.2. | 5. Canlıları yaşadanlar | Dərslik, iş vərəqləri, işıq, su, qida şəkilləri, rəngli qələmlər |
| | 1.4.1. | 6. Təmiz ətraf mühit uğrunda | Dərslik, iş vərəqləri, şəkillər, videomateriallar |
| | | 7. Kiçik summativ qiymətləndirmə | İş vərəqləri, müxtəlif yoxlama vasitələri |
| Həyatımız | 2.1.1., 2.1.3. | 1. Bizim ailə | Dərslik, iş vərəqləri, şəkillər |
| | 2.1.2. | 2. Kollektiv – birgə fəaliyyət göstərənlər | Dərslik, iş vərəqləri, şəkillər |
| | 2.2.2. | 3. Büdcə | Dərslik, iş vərəqləri, lüğət |
| | 2.2.1., 2.2.3. | 4. Gün rejimim | Dərslik, saat, lövhə |
| | | 5. Kiçik summativ qiymətləndirmə | İş vərəqləri, müxtəlif yoxlama vasitələri |
| Azərbaycanımız | 2.2.3. | 1. Azərbaycanın pul nişanları | Dərslik, iş vərəqləri, tablo, kompüter |
| | 2.3.1.<br>2.3.1. | 2. Dövlət rəmzlərimiz | Dərslik, Azərbaycan Respublikasının Dövlət Bayrağı və Azərbaycan Respublikasının Dövlət Himni ilə bağlı video-audioyazılar, şəkillər, iş vərəqləri, kompüter |
| | | 3. Məktəbimizin nizam-intizam qaydaları | Dərslik, iş vərəqləri, şəkillər, videoyazılar, kompüter |
| | 2.4.1. | 4. Məktəbdəki hüquqlarımız | Dərslik, iş vərəqləri, şəkillər |
| | 2.4.1., 2.4.2. | 5. Kiçik summativ qiymətləndirmə | İş vərəqləri, müxtəlif yoxlama vasitələri |
| | | 6. Böyük summativ qiymətləndirmə | İş vərəqləri, müxtəlif yoxlama vasitələri |
| Mənəviyyatımız | 3.1.1. | 1. Davranış da mədəniyyətdir | Dərslik, iş vərəqləri, şəkillər, videolent |
| | 3.1.2. | 2. Yanlış davranışlar | Dərslik, şəkillər, iş vərəqləri |
| | 3.1.2., 3.2.1. | 3. İnsanın ən yaxşı xüsusiyyətləri | Dərslik, iş vərəqləri, şəkillər, lüğət |
| | 3.2.2. | 4. Xoşlamadığım xüsusiyyətlər | Dərslik, iş vərəqləri, lüğət |
| | 3.3.1., 3.3.2. | 5. Din | Dərslik, iş vərəqləri, şəkillər, Qurani-Kərim |
| | 3.4.1. | 6. Hörmət və qayğı | Dərslik, iş vərəqləri, videomateriallar, lüğət |
| | | 7. Kiçik summativ qiymətləndirmə | İş vərəqləri, müxtəlif yoxlama vasitələri |
| Rahatlığımız və təhlükəsizliyimiz | 4.1.1. | 1. Sağlam həyat – xoşbəxt həyat | Dərslik, iş vərəqləri, şəkillər, lüğət |
| | 4.1.2. | 2. Geyimlərimiz və sağlamlığımız | Dərslik, iş vərəqləri, şəkillər |
| | 4.2.2. | 3. Ehtiyatlı olaq | Dərslik, iş vərəqləri, qoruyucu tənzif, şəkillər |
| | 4.2.1. | 4. Məişətdə təhlükə törədə bilən avadanlıqlar | Dərslik, iş vərəqləri, şəkillər, kibrit, qayçı, bıçaq, alışqan |
| | 4.2.3., 4.2.4. | 5. Yolumuz uğurlu olsun! | Dərslik, iş vərəqləri, şəkillər, videomaterial |
| | 4.3.1. | 6. Təbii hadisələr | Dərslik, iş vərəqləri, şəkillər, lüğət |
| | 4.3.2., 4.3.3. | 7. Qəzalardan müdafiə vasitələri | Dərslik, iş vərəqləri, şəkillər, videomaterial, əleyhqaz, respirator |
| | | 8. Kiçik summativ qiymətləndirmə | İş vərəqləri, müxtəlif yoxlama vasitələri |
| | | 9. Böyük summativ qiymətləndirmə | İş vərəqləri, müxtəlif yoxlama vasitələri |

| İllik planlaşdırma nümunəsi | | | | | |
|---|---|---|---|---|---|
| **Sıra №-si** | **Mövzu** | **Saat** | **Dərslik, səhifə** | **Metodik vəsait, səhifə** | **Tarix** |
| **1** | **2** | **3** | **4** | **5** | **6** |
| **Yaşadığımız dünya** | | | | | |
| 1 | Həyat varlıqlardan ibarətdir | 1 | 6-7 | 8-9 | |
| 2 | Mən bunların adını bilirəm | 1 | 8-9 | 10-11 | |
| 3 | Dünyamız – Yer kürəsi | 1 | 10-11 | 12-13 | |
| 4 | Canlı varlıqlar | 1 | 12-13 | 14-15 | |
| 5 | Canlıları yaşadanlar | 1 | 14-15 | 16-17 | |
| 6 | Təmiz ətraf mühit uğrunda | 1 | 16-17 | 18-19 | |
| 7 | Kiçik summativ qiymətləndirmə | 1 | | | |
| **Həyatımız** | | | | | |
| 8 | Bizim ailə | 1 | 18-19 | 20-21 | |
| 9 | Kollektiv – birgə fəaliyyət göstərənlər | 1 | 20-21 | 22-23 | |
| 10 | Büdcə | 1 | 22-23 | 24-25 | |
| 11 | Gün rejimim | 1 | 24-25 | 26-27 | |
| 12 | Kiçik summativ qiymətləndirmə | 1 | | | |
| **Azərbaycanımız** | | | | | |
| 13 | Azərbaycanın pul nişanları | 1 | 26-27 | 28-29 | |
| 14 | Dövlət rəmzlərimiz | 1 | 28-31 | 30-33 | |
| 15 | Məktəbimizin nizam-intizam qaydaları | 1 | 32-33 | 34-35 | |
| 16 | Məktəbdəki hüquqlarımız | 1 | 36-37 | 38-39 | |
| 17 | Kiçik summativ qiymətləndirmə | 1 | | | |
| 18 | Böyük summativ qiymətləndirmə | 1 | | | |
| **Mənəviyyatımız** | | | | | |
| 19 | Davranış da mədəniyyətdir | 1 | 38-39 | 40-41 | |
| 20 | Yanlış davranışlar | 1 | 40-41 | 42-43 | |
| 21 | İnsanın ən yaxşı xüsusiyyətləri | 1 | 42-43 | 44-45 | |
| 22 | Xoşlamadığım xüsusiyyətlər | 1 | 44-45 | 46-47 | |
| 23 | Din | 1 | 46-47 | 48-49 | |
| 24 | Hörmət və qayğı | 1 | 48-49 | 50-51 | |
| 25 | Kiçik summativ qiymətləndirmə | 1 | | | |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| **Rahatlığımız və təhlükəsizliyimiz** | | | | | |
| 26 | Sağlam həyat – xoşbəxt həyat | 1 | 52-53 | 52-53 | |
| 27 | Geyimlərimiz və sağlamlığımız | 1 | 54-55 | 54-55 | |
| 28 | Ehtiyatlı olaq | 1 | 56-57 | 56-57 | |
| 29 | Məişətdə təhlükə törədə bilən avadanlıqlar | 1 | 58-59 | 58-59 | |
| 30 | Yolumuz uğurlu olsun! | 1 | 60-61 | 60-61 | |
| 31 | Təbii hadisələr | 1 | 62-63 | 62-63 | |
| 32 | Qəzalardan müdafiə vasitələri | 1 | 64-65 | 64-65 | |
| 33 | Kiçik summativ qiymətləndirmə | 1 | | | |
| 34 | Böyük summativ qiymətləndirmə | 1 | | | |

**Qeyd:** Vəsaitin 36, 66 və 69-cu səhifələrində KSQ nümunələri verilmişdir. Bununla belə, hər bir müəllim sinfinin və şagirdlərinin səviyyəsini nəzərə almaqla kiçik summativ qiymətləndirmə nümunələri tərtib etməkdə sərbəstdir.

**Şagird nailiyyətlərinin qiymətləndirilməsi meyar və səviyyələr nəzərə alınmaqla aparılır.**

| Meyarlar | Səviyyələr | | | Nəticə |
|---|---|---|---|---|
| | I səviyyə | II səviyyə | III səviyyə | |
| | kafi | yaxşı | əla | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |

**Qeyd:** Qiymətləndirmə cədvəlləri bütün mövzu və tədris vahidlərinin hər biri, eləcə də səviyyələr və meyarlar nəzərə alınmaqla hazırlanmışdır. Bütün bunlar “Müəllim üçün metodik vəsait”in 9, 11, 13, 15, 17, 19, 21, 23, 25, 27, 29, 31, 33, 35, 37, 39, 41, 43, 45, 47, 49, 51, 53, 55, 57, 59, 61, 63, 65 və 67-ci səhifələrində öz əksini tapmışdır.

## 1-ci dərs

## Həyat varlıqlardan ibarətdir

**Məzmun xətti:**
Təbiət və biz

**Alt standart:**
1.1.1.
– Varlıqları, hadisələri sadə şəkildə təsvir edir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Ətrafdakı varlıqları sadə şəkildə təsvir edir.
∆ Müşahidə etdiyi varlıqların mahiyyətini anladığını nümayiş etdirir.

**İnteqrasiya:**
Fəndaxili: 1.1.2.
Fənlərarası:
A.d.: 2.1.1.; Riy.: 2.3.1., 3.1.1., 4.1.2., 4.1.3.;
İnf.: 1.2.1., 1.2.2.;
Təs.i.: 1.1.2.;
X.d.: 1.1.2.

**İş forması:**
Cütlərlə iş,
kiçik qruplarla iş

**İş üsulu:**
Müsahibə

**Resurslar:**
Dərslik, iş vərəqləri, şəkillər

**Motivasiya:** Şagirdlərdən qələmlə dəftərin bir-birindən fərqi soruşulur. Həm qələmdən, həm də dəftərdən nə məqsədlə, necə istifadə edildiyi ilə bağlı şagirdlərin fikirləri dinlənilir. Müəllim varlıqların xarakterik əlamətlərinə, onların fərqlərinə görə yönəldici suallar verə bilər:
1) *Ətrafda gördüyünüz əşyalar bir-birindən hansı xüsusiyyətlərinə görə fərqlənir?*
2) *Nəyi ilk dəfə məktəbdə görmüşsünüz?*
Fərziyyələr dinlənilir.

**Tədqiqat sualı:** Niyə bütün varlıqlar eyni deyil?

**Tədqiqatın aparılması:** Bütün şagirdlərin qrup şəklində birgə fəaliyyət göstərməklə bağlı təsəvvürlərinin eyni olmamasını nəzərə alıb, parta yoldaşlarının birgə çalışmasına aid izahat verilir. Şagirdlər lövhədən asılmış şəkillərdəki varlıqlarla onlara paylanmış iş vərəqlərindəki varlıqların şəkillərini müqayisə edirlər.

**İnformasiya mübadiləsi:** Şagirdlər əldə etdikləri məlumatları növbə ilə təqdim edirlər.

**İnformasiyanın müzakirəsi:** Müəllim yönəldici suallardan istifadə edir.
1) *Siz iki əşyanı müqayisə etdikdə nəyi əsas götürürsünüz?*
2) *Rəngi, forması eyni olan iki cismin hansının ağır olduğunu tərəzi olmadan necə müəyyən etmək olar?*
Müzakirədə söylənilən fikirlər ümumiləşdirilir.

**Dərslik üzərində iş:** 6-7-ci səhifədəki şəkillər üzrə müsahibə təşkil olunur. Hansı varlıqların canlı, hansı varlıqların cansız olduğu fərqləndirilir. Şəkillərdəki varlıqların həm adları, həm də onların xarakterik əlamətləri söylənilir.

**Ümumiləşdirmə və nəticə:** Müəllimin bələdçiliyi ilə şagirdlər varlıqların hər birinin xarakterik əlamətlərə malik olduğunu, ona görə də bütün varlıqların eyni olmadığını bilirlər.

**Tətbiqetmə:** İş vərəqlərində metodik vəsaitin 9-cu səhifəsindəki, yaxud ona uyğun hazırlanmış tapşırıqlar icra olunur, yoxlanılır. *(Əlifba təlimi yekunlaşana qədər bütün tapşırıqların mətnini müəllim oxuyur.)*







**Sual və tapşırıqlar:**

1) 

Müqayisə edin: hər ikisi işıq saçır.

2) 

Uçmaq üçün hökmən mühərrik lazımdırmı?

3) 

Turş olan meyvənin adı nədir?

**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Ətrafdakı varlıqları sadə şəkildə təsvir edir. | | | | |
| 2. Varlıqları əlamətlərinə görə qruplaşdırır. | | | | |
| 3. Varlıqların adlarını söyləyir. | | | | |

## 2-ci dərs

# Mən bunların adını bilirəm

**Məzmun xətti:**
Təbiət və biz

**Alt standart:**
1.1.2.
– Varlıqları, hadisələri xarakterik əlamətlərinə görə fərqləndirir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Təbiət hadisələrini sadə şəkildə təsvir edir.
∆ Hadisələr arasındakı sadə əlaqələri izah edir.

**İnteqrasiya:**
Fəndaxili: 1.1.1.
Fənlərarası:
A.d.: 1.2.1.;
İnf.: 1.2.2.;
Tex.: 4.1.3.;
X.d.: 2.2.1.

**İş forması:**
Cütlərlə iş

**İş üsulu:**
Tədqiqat,
müsahibə

**Resurslar:**
Dərslik, iş vərəqləri, şəkillər, plastilin

**Motivasiya:** Müəllim sinifdə olan varlıqların bir neçəsinin adını (parta, şagird, kitab, qapı, lampa və s.) şagirdlərdən soruşur: **“Niyə hər əşyanın, hər hadisənin öz adı var?”** Dinlənilən cavablar ümumiləşdirilir.

**Tədqiqat sualı:** Hər bir varlığın öz adının olması nə ilə bağlıdır?

**Tədqiqatın aparılması:** Şagirdlər cütlər şəklində qruplara bölünürlər. Onlara üzərində müxtəlif hadisələrin şəkli olan iş vərəqləri paylanılır. Əlifba təlimi başa çatmadığından müəllim sagirdlərə tapşırır ki, iş vərəqlərində təsvir olunan hadisələrin adlarını söyləsinlər (əlifba təlimi başa çatana qədər bu cür tapşırıqlar şifahi nitq formasına əsaslanacaq).

**İnformasiya mübadiləsi:** Cütlər iş vərəqlərindəki şəkilləri sözlə ifadə edir və iş vərəqlərini lövhədən asırlar.

**İnformasiyanın müzakirəsi:** Müəllim aşağıdakı yönəldici suallardan istifadə edə bilər:
1) *Niyə hər bir hadisənin öz adı olur?*
2) *Hadisələrin adlarını kim müəyyən edir?*
3) *Varlıq və hadisələrin adları müxtəlif dillərdə niyə eyni olmur?*

**Dərslik üzərində iş:** 8-9-cu səhifələrdəki şəkillərin mənası sözlə ifadə edilir. Həmin səhifədəki suallar cavablandırılır.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər hadisələri sadə şəkildə təsvir edir, onların adlarını söyləyir, hadisələr arasındakı əlaqələri izah edirlər.

**Tətbiqetmə:** Şagirdlər lövhədən asılmış şəkillərə uyğun olaraq bəzi təbiət hadisələrinin şəkillərini çəkirlər. Metodik vəsaitin 11-ci səhifəsindəki nümunələr əsasında hazırlanmış sual və tapşırıqlar iş vərəqlərində icra edilir, yoxlanılır. Şagirdlərin əldə etdikləri nəticələr müqayisə edilir.







**Mən bunların adını bilirəm.**















Sinifdə gördüyünüz varlıqların adlarını deyin.

## Qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Hadisələrin adlarını sadalayır. | | | | |
| 2. Hadisələri sadə şəkildə təsvir edir. | | | | |
| 3. Hadisələrin təbiətdəki rolunu müqayisə edir. | | | | |
| 4. Varlıq və hadisələri əlamətlərinə görə fərqləndirir. | | | | |

## 3-cü dərs

## Dünyamız – Yer kürəsi

**Məzmun xətti:**
Təbiət və biz

**Alt standart:**
1.2.1.
– Coğrafi obyektləri (*dağ, təpə, dərə, düzənlik, çay, göl*) əlamətlərinə görə fərqləndirir.
1.2.2.
– Yaşadığı ərazinin sadə coğrafi təsvirini verir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.
∆ Coğrafi obyektləri sadalayır.
∆ Coğrafi obyektlərdən dağı, təpəni, çayı, gölü, düzənliyi tanıyır.
∆ Coğrafi obyektlərin əlamətlərini sadalayır və onları bir-birindən fərqləndirir.

**İnteqrasiya:**
Fəndaxili: 1.1.1.
Fənlərarası:
İnf.: 1.2.3.

**İş forması:**
Kiçik qruplarla iş

**İş üsulu:**
Tədqiqat, müzakirə

**Resurslar:**
Dərslik, iş vərəqləri, şəkillər, videomateriallar

**Motivasiya:** Ekranda dağ, çay, göl, dərə, təpə təsviri olan videomaterial göstərilir. Şagirdlər gördükləri coğrafi obyektləri ümumi şəkildə (coğrafi obyektlərə xüsusi ad vermədən) adlandırırlar. Sonra şagirdlərdən Azərbaycanla bağlı konkret çayların, göllərin adı soruşulur. Fikirlər ümumiləşdirilir.

**Tədqiqat sualı:** Hər tərəf niyə eyni formada deyil?

**Tədqiqatın aparılması:** Qruplara şərti olaraq ad və tapşırıq verilir. Qruplar aşağıdakılara aid nümunələr söyləyirlər:
I qrup – dağ adları
II qrup – çay adları
III qrup – göl adları

**İnformasiya mübadiləsi:** Qrup təmsilçiləri növbə ilə qısa şəkildə informasiyalarını elan edirlər.

**İnformasiyanın müzakirəsi:** Müzakirə zamanı aşağıdakı coğrafi obyektlərin bir-birindən fərqləndirilməsi diqqətdə saxlanıla bilər:
1) Dağ, onun xüsusiyyətləri
2) Çay, onun xüsusiyyətləri
3) Göl, onun xüsusiyyətləri
4) Dərə, onun xüsusiyyətləri
5) Təpə, onun xüsusiyyətləri
6) Düzənlik, onun xüsusiyyətləri
7) Şəhərdə yaşayış sahələri
8) Kənddə yaşayış sahələri

**Dərslik üzərində iş:** Şagirdlər əvvəlcə 10-cu, sonra isə 11-ci səhifədəki coğrafi obyektlərlə bağlı şəkillər üzrə mühakimə yürüdür, onu əsaslandırırlar. Sonra isə mövzu ilə bağlı suallar cavablandırılır. Çayla göl, dağla təpə müqayisə olunur.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər müşahidələr əsasında coğrafi obyektləri bir-birindən fərqləndirirlər.

**Tətbiqetmə:** Metodik vəsaitin 13-cü səhifəsindəkilərə uyğun hazırlanmış şəkilli sual və tapşırıqlar iş vərəqlərində cavablandırılır, yoxlanılır.


Yaşadığımız dünya
3 DÜNYAMIZ – YER KÜRƏSİ




Şəkillərdən istifadə etməklə çayların
necə yaranması haqqında danışın.



**Sual və tapşırıqlar:**

1) 

Mühəndis olsanız, harada körpü tikərsiniz?

2) Çayın axma istiqamətini müəyyən edin.



3) Dağı, dərəni, təpəni, düzənliyi göstərin.



**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Coğrafi obyektləri (dağ, təpə, çay, göl, dərə, düzənlik) tanıyır. | | | | |
| 2. Coğrafi obyektlərin (dağ, təpə, çay, göl, dərə, düzənlik) əlamətlərini sadalayır. | | | | |
| 3. Coğrafi obyektləri əlamətlərinə görə fərqləndirir. | | | | |
| 4. Yaşadığı ərazinin sadə coğrafi təsvirini verir. | | | | |

## 4-cü dərs

## Canlı varlıqlar

**Məzmun xətti:**
Təbiət və biz

**Alt standart:**
1.3.1.
– Canlılar aləminə aid olan varlıqları (*bitki, heyvan, insan*) tanıyır.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.
∆ Bütün canlı varlıqların qidalandığını, çoxaldığını, artdığını əsaslandırır.
∆ İnsanın canlı varlıq olduğunu əsaslandırır.
∆ Bitkilərin canlı varlıq olduğunu əsaslandırır.
∆ Heyvanların canlı varlıq olduğunu əsaslandırır.

**İnteqrasiya:**
Fəndaxili: 1.1.1., 1.3.2.

**İş forması:**
Kiçik qruplarla iş

**İş üsulu:**
Tədqiqetmə, təqdimetmə

**Resurslar:**
Dərslik, iş vərəqləri, şəkillər

**Motivasiya:** Aşağıdakı suallarla şagirdlərə müraciət olunur: *"O hansı varlıqdır ki, nəfəs alır, qidalanır, səs çıxarır, düşünür, danışır?"*
Şagirdlər sual ətrafında fikirləşən zaman müəllim yerindən onlara müraciət edir ki, sualın cavabını hesab etdiyiniz varlığın şəklini lövhədəki şəkillər içərisindən müəyyən edin. Məqsəd insan şəklini fərqləndirməklə sualın cavabını tapmaqdır.

**Tədqiqat sualı:** Canlı varlıqları necə fərqləndirirsiniz? Tədqiqat üçün konkret vaxt müəyyən edilə bilər.

**Tədqiqatın aparılması:** Şagirdlər üç qrupa bölünürlər. Onlara üzərində şəkillər olan iş vərəqləri paylanılır.
I qrup iş vərəqindəki şəklin insan rəsmi olduğunu;
II qrup iş vərəqindəki şəklin bitki rəsmi olduğunu;
III qrup iş vərəqindəki şəklin heyvan rəsmi olduğunu əsaslandırmalıdır.

**İnformasiya mübadiləsi:** Qrup təmsilçiləri informasiyaları növbə ilə elan edir. Müəllim informasiyalara münasibət bildirir.

**İnformasiyanın müzakirəsi:** Müzakirə məntiqi təfəkkürə əsaslanmaqla qurula bilər. Bunun üçün **"bəli"**, **"xeyr"** cavablarına əsaslanan qapalı tipli suallardan fərqli olaraq, bir yox, bir neçə mümkün cavabı nəzərdə tutan **"niyə?"**, **"nəyə görə?"**, **"necə fərqləndirdiniz?"** tipli açıq suallardan da istifadə edilə bilər. Bu qayda ilə insan, bitki, heyvan kimi canlı varlıqlar bir-birindən fərqləndirilir, oxşar cəhətləri müəyyən edilir.

**Dərslik üzərində iş:** Bir neçə şagird 12-ci səhifədəki, bir neçə şagird isə 13-cü səhifədəki şəkillərin mənasını izah edir. Həmin səhifədəki suallara şagirdlərin münasibəti öyrənilir .

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər insanın, bitkinin, heyvanın, balığın, quşun canlı varlıqlar olduğunu, onların oxşar və fərqli xüsusiyyətlərə malik olduqlarını əsaslandırırlar.

**Tətbiqetmə:** Metodik vəsaitin 15-ci səhifəsindəki şəkilli tapşırıqlar əsasında iş vərəqləri hazırlanır və şagirdlərə paylanılır. Sual və tapşırıqlar icra olunur, yoxlanılır və müzakirə edilir.







**Sual və tapşırıqlar:**

1)  Niyə canlıdır?

2)  Niyə canlı deyil?

    

Ən ağıllı varlığın şəklini göstərin və xüsusiyyətlərini söyləyin.

**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Canlı varlıqları tanıyır. | | | | |
| 2. Canlı varlıqları cansız varlıqlardan fərqləndirir. | | | | |
| 3. Varlıqları bir-biri ilə müqayisə edir. | | | | |
| 4. Varlıqların oxşar və fərqli cəhətlərini fərqləndirir. | | | | |

## 5-ci dərs

## Canlıları yaşadanlar

**Məzmun xətti:**
Təbiət və biz

**Alt standart:**
1.3.2.
– Canlıların yaşamasını şərtləndirən amilləri sadalayır.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Canlıların havasız, susuz, qidasız yaşaya bilmədiyini əsaslandırır.
∆ İşığın, istiliyin canlıların yaşamasını şərtləndirən amillər olduğunu əsaslandırır.

**İnteqrasiya:**
Fəndaxili: 1.3.1.
Fənlərarası:
A.d.: 1.2.1.

**İş forması:**
Kiçik qruplarla iş

**İş üsulu:**
Tədqiqetmə, təqdimetmə

**Resurslar:**
Dərslik, iş vərəqləri, işıq, su, qida şəkilləri, rəngli qələmlər

**Motivasiya:** Müəllim şagirdlərə aşağıdakı suallarla müraciət edir:
1) *Siz hər gün hökmən nədən istifadə edirsiniz?*
2) *İnsan gözü bağlı olduğu zaman nədən məhrum olur?*
3) *İnsanın hər an ehtiyac duyduğu nədir? Niyə?*
4) *İnsandan başqa hansı canlılar tənəffüs edir, qidalanır?*
5) *İnsan yatanda da, yeyəndə də, oxuyanda da nəyə fasilə vermir?*

Cavablar sistemləşdirilir.
Müəllim şagirdlərə xatırladır ki, siz nə qədər ki körpə idiniz, məktəbə gəlmirdiniz. Böyüdünüz, 6 yaşınız oldu, məktəbə gəldiniz. Ətrafınızdakı ağaclar, gördüyünüz heyvanlar da böyüyür.

**Tədqiqat sualı:** Bütün canlılar hökmən nələrdən istifadə etməlidir?

**Tədqiqatın aparılması:** Qrup üzvlərinin diqqəti lövhədən asılmış ağ-qara rəngli şəkillərə: işığa, şara doldurulmuş havaya, bulaqdan axan suya, müxtəlif ərzaqlara, eləcə də digər şəkillərə yönəldilir. Tapşırığın mahiyyəti belədir ki, şagirdlər canlılar üçün zəruri hesab etdikləri varlıqların eynilə iş vərəqlərində olan şəkillərini uyğun rənglə rəngləməlidirlər.

**İnformasiya mübadiləsi:** Qrup təmsilçiləri münasib bilib rənglədikləri şəkilləri yoldaşlarına və müəllimə göstərdikdən sonra lövhədən asırlar.

**İnformasiyanın müzakirəsi:** Müzakirənin səmərəli keçməsi üçün ancaq qrup təmsilçilərini (liderlərini) dinləməklə kifayətlənmək olmaz. Bütün şagirdlərin fəallığı aşağıdakı sualların cavablandırılmasına yönəldilir: Mənzildə pəncərənin, sobanın, lampanın, mətbəxin, nəfəsliyin olması nə üçündür?
1) *Heyvanlar niyə qidalanır?*
2) *Su heyvanları tənəffüs edirmi? Necə?*
3) *İnsan niyə üşüyür?*

**Dərslik üzərində iş:** 14-cü və 15-ci səhifələrdəki şəkillərin mənası sözlə ifadə olunur. Hər iki səhifədəki sual və tapşırıqlar cavablandırılır.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər canlıların susuz, havasız, ərzaqsız, işıqsız, istiliksiz yaşaya bilmədiklərini əyani şəkildə əsaslandırırlar.

**Tətbiqetmə:** Metodik vəsaitin 17-ci səhifəsindəki şəkillər əsasında tərtib olunmuş tapşırıqlar iş vərəqlərində icra olunur və yoxlanılır.


Yaşadığımız dünya

5 CANLILARI YAŞADANLAR

Nə olmasa, canlılar məhv olar?

Dünyamızı nə işıqlandırır?

Günəşlə lampanın nə fərqi var?

Udduğumuz hava ilə şara doldurulmuş havanı müqayisə edin.

14


Su nə üçündür?

Yemək nə üçündür?

İnsanlar niyə qışda isti paltar geyinirlər?

15

**Sual və tapşırıqlar:**



Canlıların yaşaması üçün daha çox nə lazımdır?

**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Canlıların yaşamasını şərtləndirən amilləri sadalayır. | | | | |
| 2. Canlıların yaşaması üçün lazım olan şərtləri (hava, qida, su, işıq, istilik) sadalayır. | | | | |
| 3. Canlıların yaşaması üçün vacib olan amilləri bir-birindən fərqləndirir. | | | | |
| 4. Canlıları yaşadan amillərin oxşar cəhətlərini sadalayır. | | | | |

## 6-cı dərs

## Təmiz ətraf mühit uğrunda

**Məzmun xətti:**
Təbiət və biz

**Alt standart:**
1.4.1.
– Ətraf mühitin (*evin, sinfin, həyətin, havanın, suyun*) təmiz saxlanılmasının vacibliyini sadə şəkildə şərh edir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.
∆ Əlverişli və əlverişsiz təbii mühiti bir-birindən fərqləndirir.
∆ Ətraf mühit amillərini sadalayır.

**İnteqrasiya:**
Fəndaxili: 1.3.1.
Fənlərarası:
Tex.: 3.1.2.

**İş forması:**
Kiçik qruplarla iş

**İş üsulu:**
Təqdimetmə, müzakirə

**Resurslar:**
Dərslik, iş vərəqləri, şəkillər, videomateriallar

**Motivasiya:** Ətraf mühitin həm təmiz olması, həm də çirkləndirilməsi ilə bağlı şəkillər nümayiş etdirilir. Müəllim *"İnsanlar ətraf mühitdə hansı dəyişikliyi edə bilər?"* sualı ilə şagirdlərə müraciət edir. Ümumiləşdirdiyi cavabları lövhədə yazır. Balıqların, quşların, bəzi heyvanların ətraf mühitin çirklənməsi nəticəsində məhv olduğu, insanların müəyyən xəstəliklərə tutulması, eləcə də bəzi bitkilərin yox olmaq təhlükəsi qarşısında qalması barədə şagirdlərə məlumat verilir.

**Tədqiqat sualı:** Ətraf mühitin çirklənməsi hansı təhlükələrin yaranmasına səbəb ola bilər?

**Tədqiqatın aparılması:** Şagirdlər kiçik qruplara bölünür. Hər qrupa şəkillər paylanılır. Bir qrup üçün meşənin, parkın qorunması; o biri qrup üçün dənizin çirkləndirilməsi; digər qrupa həyətin təmiz olması ilə bağlı şəkillərdəki təsvirlərə şagirdlər *niyə?* sualı ilə şərh verirlər. Onlar həm mənfi, həm də müsbət cəhətləri əsaslandırırlar.

**İnformasiyanın mübadiləsi:** Şagirdlər qrup təmsilçilərinin elan etdikləri informasiya əsasında geniş məlumata malik olurlar.

**İnformasiyanın müzakirəsi:** Aşağıdakılar müzakirə obyekti ola bilər:
*1) Ətraf mühitin təmizliyi niyə vacibdir?*
*2) Siz ətraf mühitin təmiz olmasını kimdən öyrənmişsiniz?*
*3) Ətraf mühiti çirkləndirənlərə qarşı hansı tədbirlər görülməlidir? və s.*
*4) Sinif otaqlarınızda və evinizdə bitkilərə nə üçün qulluq edirsiz?*
Müəllim müzakirələri yekunlaşdırır, fəal olanları təqdir edir.

**Dərslik üzərində iş:** 16-cı səhifədəki materialla tanışlıq vasitəsilə şagirdlərin ətraf mühit haqqında təsəvvürləri genişləndirilir. 17-ci səhifədəki material əsasında şagirdlər ətraf mühit amillərini müqayisə edirlər. Sualları cavablandırırlar.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər öyrənirlər ki, ətraf mühiti təmiz saxlamaq insanın, bütün canlıların təmiz olması, sağlam olması deməkdir. Ətraf mühitin vəziyyəti daha çox insan fəaliyyəti ilə bağlıdır.

**Tətbiqetmə:** Metodik vəsaitin 19-cu səhifəsindəki sual və tapşırıqlar əsasında hazırlanmış iş vərəqləri şagirdlərə paylanır. Sual və tapşırıqlar yerinə yetirilir və yoxlanılır.




## Təmiz ətraf mühit uğrunda









1) Şəkildə gördüklərinizə qiymət verin.
2) Ətraf mühitin qorunması kimdən asılıdır?
3) Yaşayış üçün əlverişli mühit necə olmalıdır?

## Qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Ətraf mühit amillərini sadalayır. | | | | |
| 2. Əlverişli və əlverişsiz ətraf mühiti fərqləndirir. | | | | |
| 3. Əlverişli və əlverişsiz ətraf mühitin fərqini sadə şəkildə şərh edir. | | | | |
| 4. Ətraf mühitin (evin, sinfin, həyətin, suyun) qorunmasının vacibliyini sadə şəkildə şərh edir. | | | | |

## 7-ci dərs

## Bizim ailə

**Məzmun xətti:**
Fərd və cəmiyyət

**Alt standart:**
2.1.1.
– “Fərd”, “ailə” və “kollektiv” anlayışları barədə təsəvvürlərini bildirir.
2.1.3.
– Ailədə və kollektivdə üzərinə düşən vəzifələri sadalayır.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ İnsanı sosial varlıq kimi dərk edir.

∆ Ailənin qohumluq münasibəti əsasında qurulduğunu bilir.

∆ Ailədə və kollektivdə səmimi münasibətin vacibliyini izah edir.

**İnteqrasiya:**
Fəndaxili: 2.1.2.

**İş forması:**
Kiçik qruplarla iş

**İş üsulu:**
Təqdimetmə, müzakirə, müsahibə

**Resurslar:**
Dərslik,
iş vərəqləri, şəkillər

**Anlayışlar:**
*Ailə, fərd, kollektiv*

**Motivasiya:** “Ailəmiz kimlərdən ibarətdir?” – deyə müəllim şagirdlərə müraciət edir. Bir neçə şagird öz ailələri əsasında sualı cavablandırır.

**Tədqiqat sualı:** Bir mənzildə birlikdə yaşayanlar nə adlanır?

**Tədqiqatın aparılması:** Lövhədən nömrələnmiş müxtəlif şəkillər asılır:
1) İş yeri ilə bağlı; 2) ailə üzvləri ilə bağlı; 3) tək bir adamla bağlı. Kiçik qruplara bölünən şagirdlərə paylanılan iş vərəqlərində ancaq qrupun nömrəsi yazılır.
Tapşırığın mahiyyəti belədir ki,
1-ci qrup lövhədəki şəklə əsasən ailəni,
2-ci qrup kollektivi,
3-cü qrup isə ailəyə və kollektivə aid olmayan şəkli müəyyən etməli, nömrəsini iş vərəqində qeyd etməlidir.

**İnformasiya mübadiləsi:** 1-ci qrupun təmsilçisi özlərinin iş vərəqini ailəyə aid şəklin,
2-ci qrupun təmsilçisi iş vərəqini kollektivə aid şəklin,
3-cü qrupun təmsilçisi isə iş vərəqini fərdə aid şəklin yanından asır.

**İnformasiyanın müzakirəsi:** Müəllim şərait yaradır ki, qrup üzvləri iş vərəqlərini məhz niyə o şəklin yanından asdıqlarını əsaslandırsınlar. Yardımçı suallardan da istifadə edilə bilər:
*1) Ailə üzvləri niyə qohumluq əsasında birləşirlər?*
*2) Qohumlar arasında yaşca ən böyüyü kimlər olur?*
*3) Valideynlərinizin iş yerindəki insanlar birlikdə nə adlanır?*
Müəllim müzakirələri yekunlaşdırır.

**Dərslik üzərində iş:** Şagirdlər 18-ci səhifədəki şəkillərin mənasını izah edir, müəllim isə dairənin daxilindəki kiçik həcmli mətni oxumaqla ailənin mahiyyəti haqqında şagirdlərə məlumat verir. Sonra 19-cu səhifədəki şəkillərin mənası izah olunmaqla şagirdlər bir daha ailədə, kollektivdə üzərinə düşən vəzifəni dərk edir, əlavə nümunələr söyləyirlər. Müəllim 19-cu səhifədəki mətnlə şagirdləri tanış edir.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər ailənin qohumluq münasibətləri əsasında formalaşdığını, bir mənzildə birlikdə yaşayanların ailə adlandırılmasını öyrənir, ailədə və kollektivdə üzərlərinə düşən vəzifələri şərh edirlər.

**Tətbiqetmə:** Dərsliyin 19-cu səhifəsindəki qiymətləndirmə sualları cavablandırılır və yoxlanılır. Sonra metodik vəsaitin 21-ci səhifəsindəki nümunədə olan tapşırıqlar icra edilir.


Həyatımız

7 BİZİM AİLƏ

Gəlin tanış olaq:

Babam – valideynlərimin atası

Nənəm – valideynlərimin anası

Atam

Anam

Bir yerdə yaşayan baba, nənə, ata, ana və uşaqlar birlikdə ailədir.

Qardaşım

Bacım

Qohumlarım

Əmim – atamın qardaşı

Dayım – anamın qardaşı

Xalam – anamın bacısı

Bibim – atamın bacısı

18


Əşyalarımı səliqəli saxlayıram. Valideynlərimi incitmirəm. Tapşırıqları həvəslə yerinə yetirirəm. Ev işlərində valideynlərimə kömək edirəm.

Tənha olmağı, yoxsa ailə üzvləri ilə birlikdə olmağı xoşlayırsınız?

İşi birlikdə görməyin faydası nədir?

19

**Sual və tapşırıqlar:**

1) Ailədə kim övlad adlanır? ____________________

2) Ailə hansıdır?







3) Boş xanaları doldurun.
Atanızın qardaşı ☐☐☐ Ananızın bacısı ☐☐☐☐

4) Babanın oğlunun oğlu nə adlanır? (Xanaya + işarəsi qoyun.)
Oğul ☐ Nəvə ☐ Əmi ☐

**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Ailədə və kollektivdə üzərinə düşən vəzifələri şərh edir. | | | | |
| 2. “Fərd”, “ailə” və “kollektiv” anlayışları barədə təəssüratlarını bildirir. | | | | |
| 3. Ailənin qohumluq münasibətləri əsasında formalaşdığını əsaslandırır. | | | | |
| 4. İnsanı sosial varlıq kimi dərk etdiyini əsaslandırır. | | | | |

## 8-ci dərs — Kollektiv – birgə fəaliyyət göstərənlər

**Məzmun xətti:**
Fərd və cəmiyyət

**Alt standart:**
2.1.2.
– Birgə fəaliyyətin faydasını nümunələr əsasında izah edir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Birgə fəaliyyətin faydasını izah edir.
∆ Birgə fəaliyyətin faydasını nümunələr əsasında izah edir.
∆ Özünü cəmiyyətin üzvü olduğunu hesab edir.

**İnteqrasiya:**
Fəndaxili:
2.1.1.
Fənlərarası:
Mus.: 3.1.3.

**İş forması:**
Kiçik qruplarla iş

**İş üsulu:**
Tətbiqetmə, müzakirə

**Resurslar:**
Dərslik, iş vərəqləri, şəkillər

**Motivasiya:** Müəllim şagirdlərdən soruşur: "Güc birlikdədir" atalar sözü kollektivlə bağlıdır, yoxsa fərdlə? Şagirdlər öz versiyalarını söyləyirlər.

**Tədqiqat sualı:** Eyni yerdə çalışıb işləyənlərin ailədən fərqi nədir?

**Tədqiqatın aparılması:** Şagirdlər kiçik qruplara bölünür. Hər qrupun iş vərəqində müxtəlif kollektivlərin – səhiyyə, tikinti, idman – fəaliyyətini əks etdirən şəkillər təsvir olunmuşdur. Qrupların əsas işi şəkildə gördüklərini şifahi olaraq təsvir etməkdir.

**İnformasiya mübadiləsi:** Qrup təmsilçiləri yoldaşlarının da mövqeyini əks etdirən fikirləri elan edirlər.

**İnformasiyanın müzakirəsi:** Müzakirə zamanı aşağıdakılar əsas müzakirə obyekti olur:
1. *Niyə tikintidə işləyənlər kollektiv hesab olunur?*
2. *İdman komandası nə üçün kollektiv adlanır?*
3. *Bir nəfər həkim niyə səhiyyə kollektivi adlanmır?*
4. *Tək əldən səs çıxarmı? Niyə?*

**Dərslik üzərində iş:** 20-ci səhifədəki şəkillərin mənası sözlə ifadə olunur. "Fərd" anlayışı bir daha şərh olunur. *"Üç barmaq güclüdür, yoxsa bir əl?"* sualının şərhində şagirdlərə *niyə?* sualı ilə müraciət edilməklə mühakiməyə üstünlük verilir. 21-ci səhifədəki şəkillər şərh olunur. Kollektiv nümunəsi olan məktəbdə onun üzvlərinin, xüsusən şagirdlərin üzərinə düşən vəzifələr sadalanır.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər kollektivin birgə fəaliyyətə, qarşılıqlı hörmətə, səmimiyyətə əsaslandığını dərk edir, kollektivdə hər kəsin bunlara əməl etməyə borclu olduğunu yəqin edirlər. Onlar özlərinin yalnız fərd deyil, həm də cəmiyyətin bir üzvü olduqlarını hesab edirlər.

**Tətbiqetmə:** Dərsliyin 21-ci səhifəsindəki sualların hər birinin cavabı ilə bağlı məlumatı bir neçə şagird təqdim edir. Müəllim nəticələrin doğruluğuna münasibət bildirir.
Metodik vəsaitin 23-cü səhifəsindəkilərə uyğun tapşırıqlar iş vərəqlərində icra ediləndə 4-cü tapşırığa şifahi formada bir neçə şagirdin münasibəti yoxlanıla bilər.







**Sual və tapşırıqlar:**

1) Həkimin çalışdığı kollektivin iş yerinin adını uyğun olan boş xanada yazın.

2) Hansı insanlara kömək etmək lazımdır?

3) Hansı səhvdir?
   A) Ailə üzvləri – bir-birinə ən yaxın insanlar
   B) Fərd – birlikdə işləyənlər
   C) Kollektiv – bir yerdə çalışanlar

4) Ailədəki və məktəbdəki vəzifələrinizi sadalayın.

**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Birgə fəaliyyətin faydasını izah edir. | | | | |
| 2. Birgə fəaliyyətin faydasını nümunələr əsasında izah edir. | | | | |
| 3. Özünü cəmiyyətin üzvü hesab edir. | | | | |
| 4. Özünü sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir. | | | | |

## 9-cu dərs

## Büdcə

**Məzmun xətti:**
Fərd və cəmiyyət

**Alt standart:**
2.2.2.
– Büdcə anlayışını sadə şəkildə izah edir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Hər bir ailənin büdcəsi olduğunu bilir.
∆ "Qənaət" və "israf" anlayışının mənasını izah edir.

**İnteqrasiya:**
Fəndaxili: 2.2.3.
Fənlərarası:
Tex.: 3.1.5.

**İş forması:**
Qruplarla iş

**İş üsulu:**
Müzakirə

**Resurslar:**
Dərslik,
iş vərəqləri, lüğət

**Anlayışlar:**
*Qənaət, israf*

**Motivasiya:** *Ailənizin dolanışığı nəyin hesabına təmin olunur?*

**Tədqiqat sualı:** Ərzaqdan, sudan, qazdan, elektrik enerjisindən hansı qaydada istifadə etmək ailə büdcəsi üçün sərfəlidir?

**Tədqiqatın aparılması:** Müəllim əvvəlcədən vatman kağızına qazdan, sudan, ərzaqdan, elektrik enerjisindən qənaət və israfla istifadə edilməklə bağlı nömrələnmiş şəkilləri qrup üzvlərinə göstərir və izahat verir ki, hansı şəkildə qazdan, sudan, ərzaqdan, elektrik enerjisindən istifadə edilməsi xoşunuza gəlirsə, onun nömrəsini iş vərəqində ayrıca, xoşunuza gəlməyənlərin nömrəsini də iş vərəqində ayrıca qeyd edin.

**İnformasiya mübadiləsi:** Hər qrupun təmsilçisi vərəqinə yazılmış nömrələri elan edir və iş vərəqlərini lövhədən asır. Müəllimin köməyindən və lüğətdən istifadə etməklə "büdcə", "qənaət" və "israf" sözlərinin mənası öyrənilir.

**İnformasiyanın müzakirəsi:** Müəllim müzakirədə fəal iştirak edən şagirdlərə "niyə?", "nə üçün?" sualları ilə müraciət etməklə onların ifadə etdiyi fikirləri əsaslandırmağa daha əlverişli şərait yaradır. Yardımçı suallardan da istifadə edir:
1. *Mənzildə bütün günü su kranının açıq qalması ailə büdcənizə hansı ziyanı vura bilər?*
2. *Elektrik enerjisindən qənaətlə istifadə edilməsinin faydası nədir?*

**Dərslik üzərində iş:** 22-ci səhifədəki şəkillərin mənasını şagirdlər şərh edir, müəllim mövzu ilə bağlı fikirləri, sual və tapşırıqları oxuyur. Şagirdlər öz münasibətlərini bildirirlər. 23-cü səhifədəki *"Qənaət ailə büdcəsini artırar"* fikrini bir neçə şagird izah edir.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər sudan, ərzaqdan, qazdan, elektrik enerjisindən qənaətlə istifadə olunmasının vacibliyini, israfın ailə büdcəsinə zərərli olduğunu əsaslandırırlar.

**Tətbiqetmə:** Dərsliyin 22-23-cü səhifələrindəki suallar cavablandırılır və yoxlanılır.
Metodik vəsaitin 25-ci səhifəsindəki sual və tapşırıqlardan qiymətləndirmə zamanı (iş vərəqlərində icra edilməklə) istifadə edilərkən boş xanalara sözlərin yazılması zamanı müəllim şagirdlərə müəyyən istiqamət verə bilər.


Həyatımız

9 BÜDCƏ

Hər bir ailənin büdcəsi olur.

- Ailəmizin büdcəsi valideynlərimizin maaşı hesabına təmin olunur.
- İstifadə etdiyimiz meyvə, çörək, su böyük zəhmət hesabına süfrələrimizə gəlir.
- Qənaət olmayanda israfçılıq olur.

İxtiyar sizdə olsa idi, büdcəni necə xərcləyərdiniz?

22


Qaz da, su da, elektrik də tükənə bilər. Ona görə də onlardan qənaətlə istifadə etmək lazımdır.

Qənaət bəzi ehtiyaclarımızın ödənilməsinə kömək edə bilər. Bəs israfçılıq?

İstifadə etmədikdə su kranını niyə bağlayırsınız?

Qənaət və israfçılıq anlayışlarını bir-biri ilə müqayisə edin.

Ailə büdcəsi niyə israfçılıq sevmir?

Elektrik enerjisindən, sudan niyə qənaətlə istifadə etmək lazımdır?

23

**Sual və tapşırıqlar:**

1) Ailə üzvlərinizlə şam edərkən süfrədən nə qədər yemək götürürsünüz?
   A) yeyə biləcəyim qədər  B) hamıdan çox  C) götürə biləcəyim qədər

2) Ailə büdcənizi sizə etibar etsələr, necə xərcləyərsiniz?
   A) xəsisliklə  B) səxavətlə  C) qənaətlə



3) Elektrik nəzarətçiləri mənzildə sayğacları niyə yoxlayırlar?
   A) sərf olunan enerjinin miqdarını bilmək üçün
   B) cihazların sayını bilmək üçün
   C) mənzildə işığın yandığını bilmək üçün

4) Bir mənzildə günün istənilən vaxtı elektrik lampası və qaz yanır, krandan su axır. Xanalara uyğun sözlər yazın və sözləri xətlərlə birləşdirib uyğun cümlə qurun.

Elektrik □□□□□□□ söndürülməlidir.

□□ kranı bağlanmalıdır.

**Mətn üzrə qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. “Büdcə” anlayışını sadə şəkildə izah edir. | | | | |
| 2. “Qənaət” və “israf” anlayışlarının mənasını izah edir. | | | | |
| 3. Ərzaq, su, qaz, elektrik enerjisindən qənaətlə istifadənin vacibliyini əsaslandırır. | | | | |

## 10-cu dərs

# Gün rejimim

**Məzmun xətti:**
Fərd və cəmiyyət

**Alt standart:**
2.2.1.
– Gün rejimi haqqında təsəvvürlərini sadə şəkildə ifadə edir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Vaxtdan düzgün, qənaətlə istifadə edir.
∆ Ömrün hər anının qiymətli olduğunu əsaslandırır.
∆ Gün rejimi tutmağı bacardığını nümayiş etdirir.

**İnteqrasiya:**
Fəndaxili: 2.2.2.
Fənlərarası:
Riy.: 4.1.1.; F.t.: 4.1.1.

**İş forması:**
Bütün siniflə iş

**İş üsulu:**
BİBÖ – (Bilirəm, İstəyirəm bilim, Öyrəndim)

**Resurslar:**
Dərslik, saat, lövhə

**Motivasiya:** Müəllim “Saatdan istifadə etməyin əhəmiyyəti nədir?” – deyə şagirdlərə müraciət edir. Cavabla bağlı bir neçə şagirdin fərziyyələri dinlənilir və ümumiləşdirilir.

**Tədqiqat sualı:** Atalar “Vaxt qızıldır” deyiblər. Sizcə, niyə?

**Tədqiqatın aparılması:** Müəllim lövhəni aşağıdakı formada 3 hissəyə bölür:

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|

Şagirdlər problemlə bağlı bildiklərini söyləyir və müəllim onların fikirlərini 1-ci sütuna yazır. Həmin məsələ ilə bilmək istədiklərini isə 2-ci sütuna yazır.

**İnformasiya mübadiləsi:** Müəllim bir daha lövhədə 1-ci və 2-ci sütunda yazılmış informasiyaları elan edir.

**İnformasiyanın müzakirəsi:** Müzakirənin işgüzar olması üçün müəllim konkret olaraq günün müəyyən vaxtlarından şagirdlərin necə istifadə etmələri ilə bağlı yardımçı suallar verir:
1) *Vaxtdan saat $7^{00}$-dan $12^{30}$-dək nə məqsədlə istifadə edirsiniz?*
2) *Günün hansı vaxtını istirahətə sərf edirsiniz?*
3) *Birgünlük vaxtınızın çox hissəsini nəyə sərf etmək istərdiniz? Niyə?*
4) *Niyə insanlar həm büdcənin, həm də vaxtın qədrini bilirlər?*

**Dərslik üzərində iş:** 24-25-ci səhifədə günün birinci yarısı üçün nəzərdə tutulan rejimlə tanışlıqdan sonra şagirdlərin özlərinin də günün birinci yarısı üçün fikirləri dinlənilir.
Şagirdlər sonra 24-25-ci səhifədə günün 2-ci yarısı üçün nəzərdə tutulan gün rejimi ilə tanış olur və əlavə fikirlər söyləyirlər. Mövzu ilə bağlı həmin səhifədəki suallar cavablandırılır.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər hər anın ömrün bir hissəsi olduğunu, hamının buna çox böyük dəyər verməli olduğunu əsaslandırırlar. Gün rejimi tutmağı bacardıqlarını nümayiş etdirirlər.
Müəllimin köməyi ilə vaxtdan qənaətlə istifadə etməyin yolunu öyrənirlər.

**Tətbiqetmə:** Metodik vəsaitin 27-ci səhifəsindəki 4 tapşırıq iş vərəqlərində icra olunur və yoxlanılır.
Müəllim lövhədəki 3-cü sütuna yazır: *“Vaxtdan qənaətlə istifadə etmək”.*







**Sual və tapşırıqlar:**

1) Sizcə, birinci sinif şagirdi üçün hansı yanlış hərəkətdir?

A)  B)  C) 

2) Saat nə üçündür?
A) musiqi dinləmək üçün B) vaxtı ölçmək üçün C) divardan asmaq üçün

3) İki sutka neçə saatdır?
A) 24 B) 48 C) 12

4) Yatana qədər gün rejimində daha çox nəyə vaxt sərf edirsiniz?

______________________________________________

**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Gün rejiminin nümunəsində vaxtdan qənaətlə istifadə etməsini nümayiş etdirir. | | | | |
| 2. Gün rejimini tutmağı bacardığını nümayiş etdirir. | | | | |
| 3. Vaxtdan düzgün, qənaətlə istifadə edir. | | | | |

# 11-ci dərs

# Azərbaycanın pul nişanları

**Məzmun xətti:**
Fərd və cəmiyyət

**Alt standart:**
2.2.3.
– Azərbaycan Respublikasının pul nişanlarını tanıyır.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Azərbaycan Respublikasının pul vahidinin manat olduğunu bilir.
∆ Kağız pulla metal pulu bir-birindən fərqləndirir.
∆ Azərbaycan Respublikasının pul vahidlərini fərqləndirir.
∆ Puldan səmərəli istifadə edilməsinin vacibliyini anlayır.

**İnteqrasiya:**
Fəndaxili: 2.2.2.
Fənlərarası:
Riy.: 4.2.5.

**İş forması:**
Qruplarla iş

**İş üsulu:**
Venn diaqramı

**Resurslar:**
Dərslik,
iş vərəqləri, tablo, kompüter

**Anlayışlar:**
*Manat, qəpik*

**Motivasiya:** Lövhədən üzərində müxtəlif əşya şəkilləri olan tablo asılır. Əşyaların üzərində qəpiklərlə onların qiyməti yazılır. Müəllim bir neçə şagirdə ixtiyari iki əşyaya sərf olunan pulun miqdarını hesablamağı tapşırır. Nəticələrə münasibət bildirilir.

**Tədqiqat sualı:** Pulların bir-birindən fərqi nədir?

**Tədqiqatın aparılması:** Müəllim yazı taxtasında Venn diaqramı çəkir. Şagirdlərə tapşırılır ki, 1 manatla 10 qəpiyin, 1 manatla 5 qəpiyin oxşar və fərqli cəhətlərini Venn diaqramına əsasən müəyyən etsinlər.

1 manat oxşar 5 qəpik



Şagirdlər bu fərqi müəyyən etmək üçün iş vərəqlərində müəyyən hesablamalar aparırlar. Nəticələrə uyğun olaraq diaqram doldurulur.

**İnformasiya mübadiləsi:** Qrup təmsilçiləri əldə etdikləri nəticələri elan edirlər.

**İnformasiyanın müzakirəsi:** Müəllim kompüterin ekranında kağız pulları və metallardan ibarət olan pulları təqdim edir. 10 qəpikliyi göstərir və sual verir:
– *10 qəpiklik neçə 5 qəpiklikdən ibarətdir?*
– *20 manatlıq pulun üstündə hansı nişanlar var?*
– *Pullar bir-birindən nəyinə görə fərqlənir?*
– *Pulun digər əşyalardan fərqi nədir?*
– *Pulun ailə büdcəsi ilə nə əlaqəsi var?*
Müəllim müzakirəni yekunlaşdırır.

**Dərslik üzərində iş:** 26-27-ci səhifədə təsvir olunan əsginasların adları soruşulur. Şagirdlər onların üzərindəki təsvirləri sözlə ifadə edirlər. Müəllim həmin səhifədən Azərbaycan Respublikasının pul vahidinin manat olduğunu, qazanılan pulun qənaətlə xərclənməsi ilə bağlı fikirləri oxuyur. 27-ci səhifədəki şəkillər vasitəsilə metal pullar kağız pullardan fərqləndirilir.
Məktəblilərin pul xərcləmədən kitablara pulsuz sahib olmaları dövlətimizin şagirdlərə təmənnasız qayğısı kimi dəyərləndirilir.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər Azərbaycan Respublikasının pul nişanlarını tanıyır, pulların bir-birindən dəyərinə görə fərqləndirildiyini nümayiş etdirirlər.

**Tətbiqetmə:** Metodik vəsaitin 29-cu səhifəsindəki bütün tapşırıqlar iş vərəqlərində icra edilir və yoxlanılır.


Azərbaycanımız

11 AZƏRBAYCANIN PUL NİŞANLARI

Azərbaycan Respublikasının pul vahidi manatdır.

26


Pulu qənaətlə xərcləmək lazımdır.

Azərbaycan Respublikasında dərsliklər şagirdlərə pulsuz verilir.

- 10 manatlıq kağız pulun üzərində nə təsvir olunmuşdur?
- 50 qəpiklik metal pulun üstündə təsvir olunanları sadalayın.
- Neçə 1 manat 5 manat edər?
- Metal pulla kağız pulun fərqi nədədir?
- Sizə verilən pulu nəyə xərcləyirsiniz?

27

**Sual və tapşırıqlar:**

1) Aşağıdakılardan biri pul nişanı *deyil*.

A) 

B) 

C) 

2) Azərbaycan Respublikasının pul nişanı hansıdır?

A) 

B) 

C) 

3) 1 manatlıq kağız pulun üstündə hansı musiqi alətinin şəkli yoxdur?
A) kamança
B) tar
C) saz

**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Metal və kağız pulları dəyərinə görə tanıyır. | | | | |
| 2. Pulu digər əşyalardan fərqləndirir. | | | | |
| 3. Metal və kağız pulları tanıyır. | | | | |
| 4. Azərbaycan Respublikasının pul nişanlarını tanıyır. | | | | |

## 12-ci dərs — Dövlət rəmzlərimiz

**Məzmun xətti:**
Fərd və cəmiyyət

**Alt standart:**
2.3.1.
– Azərbaycan Respublikasının dövlət rəmzlərini sadə şəkildə izah edir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Azərbaycan Respublikasının dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.
∆ Azərbaycan Respublikasının dövlət rəmzlərinə ehtiram və saygı göstərir.
∆ Azərbaycan Respublikasının dövlət bayrağını təsvir edir.
∆ Azərbaycan Respublikasının himninin mətnini əzbərdən bilir və onun musiqisini digər musiqilərdən fərqləndirir.

**İnteqrasiya:**
Fəndaxili: 2.2.3.

**İş forması:**
Böyük qruplarla iş

**İş üsulu:**
Söz assosiasiyası, Venn diaqramı, müzakirə, müsahibə

**Resurslar:**
Dərslik, Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Himni ilə bağlı video və audioyazılar, iş vərəqləri, şəkillər, kompüter

**Anlayışlar:**
*Rəmz, bayraq, himn*

**Motivasiya:** Dərs Azərbaycan Respublikasının Dövlət Himnini dinləməklə başlayır. Sonra başqa bir musiqi səsləndirilir. Müəllim hər iki musiqi barədə şagirdlərin fikirlərini və həmin musiqiləri fərqləndirmə bacarığını öyrənir. Sonra kompüterin monitorunda Azərbaycan Respublikasının dalğalanan Dövlət Bayrağı nümayiş etdirilir. Sonra müəllim şagirdlərin diqqətini müxtəlif ölkələrin dövlət bayraqlarının təsviri olan şəkillərə yönəldir. Azərbaycan Respublikasının Dövlət Bayrağının digər bayraqlardan fərqini soruşur. Cavablar ümumiləşdirilir.

**Tədqiqat sualı:** Dövlətimiz üçün bayraq və himn nədir?

**Tədqiqatın aparılması:** Müəllim lövhəyə "Dövlət rəmzləri" sözlərini yazır. Şagirdlər iki qrupa bölünür. Bir qrupa lövhəyə çəkilmiş Venn diaqramı əsasında himn və bayrağı müqayisə etmək tapşırılır.




Digər qrupa dövlət rəmzləri ilə bağlı ilk xatırladıqları fikirləri söyləmək tapşırılır. Həmin fikirləri müəllim lövhədə qeyd edir. Mövzu ilə bağlı deyilən sözlər, deyilən fikirlərin içərisindən seçilir və əlaqələndirilir. Hər qrup onlardan anlayışlar (*bayraq, rəmz*) və ideya (*dövlət rəmzlərini tanımaq lazımdır*) çıxarır.

**İnformasiya mübadiləsi:** Hər qrupun təmsilçisi çıxardığı anlayışları və ideyanı elan edir.

**İnformasiyanın müzakirəsi:** Bir çox ölkələrin dövlət rəmzləri içərisindən Azərbaycan Respublikasının dövlət rəmzləri (*bayraq, gerb*) seçilir. Bayraq və himnin oxşar və fərqli cəhətləri müzakirə olunur. İnformasiyalar sistemləşdirilir, əlaqələndirilir. Müəllim







yönəldici suallardan istifadə etməklə müzakirəni daha da məqsədyönlü edir:
Müəllim yönəldici suallarla şagirdlərə müraciət edir:
*1) İlk dəfə Azərbaycan Dövlət Bayrağını harada görmüşsünüz?*
*2) Bayrağımızın təsvirində hansı rənglərdən istifadə edilmişdir?*
*3) Dövlət rəmzlərimizin təsviri olan Azərbaycan pullarının bir neçəsini sadalayın.*
*4) Hər musiqi niyə dövlət rəmzi – himn hesab edilmir?*
*5) Himn niyə xorla oxunur?*
*6) Himnimizi dinlədikdə, oxuduqda hansı hisləri keçirirsiniz?*
*7) Azərbaycan pullarının üzərində dövlət rəmzlərimizin hansının təsviri yoxdur?*
Sonra Azərbaycan Respublikasının dövlət bayrağı hər hansı bir dövlətin (Türkiyə) bayrağı ilə müqayisə edilir. Müəllim bayrağın təsvirindəki rənglərin mənasını açıqlayır.

**Dərslik üzərində iş:** 28-ci səhifədəki şəkillərin mənası sözlə təsvir edilir. Bayraq meydanı ilə əlaqədar şagirdlərin fikirləri dinlənilir. 29-cu səhifədəki materiallarla tanışlıqdan sonra 9 Noyabr – Bayraq Günü barədə şagirdlərə məlumat verilir.
Sonra 31-ci səhifədəki şəklin mənası şərh olunur. Himnin mətni ifadəli şəkildə oxunur. Sual və tapşırıqlar cavablandırılır. Şagirdlər müəllimin köməyi ilə bayrağımız kimi, himnimizin də Azərbaycan Respublikasının müstəqilliyi ilə bağlı olduğunu əsaslandırırlar. Qrup üzvləri himni xorla oxuyurlar.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər Azərbaycanın Dövlət Bayrağını, dövlət gerbini tanıyır, dövlət rəmzlərinə hörmət etməyin hər kəsin borcu olduğunu əsaslandırır, himnin dövlət rəmzi olduğunu əsaslandırır, onu əzbər bildiyini, oxuya bildiyini nümayiş etdirirlər.

**Tətbiqetmə:** Metodik vəsaitin 32 və 33-cü səhifələrindəki tapşırıqlar iş vərəqlərində icra olunur və yoxlanılır. Şagirdlər uyğun rənglərdən istifadə etməklə iş vərəqlərində Azərbaycan Respublikasının Dövlət Bayrağını təsvir edirlər. Müəllim ən yaxşı təsvirləri təqdir edir.

## Dövlət rəmzlərimiz



Azərbaycanımız

HİMNİMİZ

AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT HİMNİ

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan, Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

30



Üzeyir Hacıbəyli

Əhməd Cavad

Himnimiz oxunan zaman hər kəs ayağa qalxır.

Himnimiz səslənəndə biz onu oxumaqdan qürur duyuruq.

Sizcə, himn nə üçün xorla oxunur?

Dövlət himnimizi əzbər söyləyin.

31

**Sual və tapşırıqlar:**

1) Dövlət rəmzlərindən hansının musiqisi var?
   A) bayrağın
   B) himnin
   C) gerbin

2) Himnimizi ilk dəfə harada eşitmişsiniz? (Doğru hesab etdiyiniz cavabın qarşısında “+” işarəsi qoyun.)
   evdə ☐
   uşaq bağçasında ☐
   məktəbdə ☐

3) Himnimizin sözlərini sizə kim əzbər öyrədib?
   müəllimim ☐
   valideynim ☐
   dostum ☐

4) Hansı dövlət rəmzi Azərbaycan Respublikasına məxsusdur?

A) 

B) 

C) 

5) Azərbaycan bayrağı hansıdır?



6) “Bayraq” sözünü hecalara ayıraraq yazın. ______________________________

7) Olimpiya çempionu olan Azərbaycan idmançısının şərəfinə nə qaldırılır?
A) bayraq
B) gerb
C) kubok

8) Boş xanaya hansı söz yazılmalıdır?
□□□□ xorla oxunmalıdır, saygı ilə dinlənilməlidir.

9) Bilik günündə məktəbin həyətində hamınız birlikdə nəyi xorla oxudunuz?
A) himni
B) andı
C) kitabı

**Qiymətləndirmə**

| **Qiymətləndirmə meyarları** | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| 1. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir. | | | | |
| 2. Azərbaycan Respublikasının dövlət rəmzlərini sadalayır. | | | | |
| 3. Azərbaycan Respublikasının Dövlət Bayrağını təsvir edir. | | | | |
| 4. Azərbaycan Respublikasının Dövlət Himnini oxuyur. | | | | |
| 5. Bayrağın və himnin dövlət rəmzləri olduğunu əsaslandırır. | | | | |

## 13-cü dərs — Məktəbimizin nizam-intizam qaydaları

**Məzmun xətti:**
Fərd və cəmiyyət

**Alt standart:**
2.4.1.
– Məktəbin daxili nizam-intizam qaydalarını sadalayır.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Nizam-intizam qaydalarını bildiyini nümayiş etdirir.
∆ Məktəbin nizam-intizam qaydalarına əməl etməyin şagird üçün vəzifə olduğunu anlayır.

**İnteqrasiya:**
Fəndaxili: 2.4.2.

**İş forması:**
Qruplarla iş

**İş üsulu:**
Rollar üzrə oyun

**Resurslar:**
Dərslik,
iş vərəqləri, şəkillər, videoyazılar, kompüter

**Motivasiya:** Kompüterin monitorunda şagirdlərin nizam-intizam qaydalarına əməl etmələri ilə bağlı material nümayiş etdirilir. Materiala şagirdlərin münasibəti öyrənilir. Şagirdlərin fikirlərində onların nizam-intizam qaydalarını pozanları nizam-intizam qaydalarına əməl edənlərdən fərqləndirmək bacarığı təsvir olunur.

**Tədqiqat sualı:** Məktəbin nizam-intizam qaydalarına əməl edilməsə, məktəbdə nə baş verər?

**Tədqiqatın aparılması:** Şagirdlər rollar üzrə qruplara bölünür.
I qrup intizam qaydalarına əməl edənlərin, II qrup intizam qaydalarına ciddi əməl etməyənlərin, III qrup 2 qrupun işinə qiymət verənlərin rolunu ifa edir. Müəllim hər üç qrupa rollar üzrə izahat verir, lövhədən asılmış şəkillərdən istifadə etməyi onlara tövsiyə edir.

**İnformasiya mübadiləsi:** Görülmüş işlər barədə informasiyaları III qrup elan edir.

**İnformasiyanın müzakirəsi:** Səmimi, qarşılıqlı hörmətə əsaslanan müzakirədə müəllim aşağıdakı yönəldici suallardan istifadə edir:
1) *Şəkillərdəki şagirdlərin davranışında bəyəndiyiniz və bəyənmədiyiniz xüsusiyyətləri sadalayın.*
2) *Məktəbdə daha çox nədən xoşunuz gəlir?*
3) *Məktəbin nizam-intizam qaydaları ilə ilk dəfə sizi kim tanış etmişdir?*
4) *Nəyə görə sinfi, məktəbin dəhlizini, həyətini zibilləmək olmaz?*
5) *Böyüyə hörmət, kiçiyə qayğını kimdən öyrənmişsiniz?*
6) *Dəcəl, səliqəsiz, tənbəl şagirdə nə tövsiyə edərdiniz?*
7) *Məktəbin nizam-intizam qaydalarına əməl etmək vəzifədir, yoxsa hüquq?*

Müəllim müzakirələri ümumiləşdirir və yekunlaşdırır.

**Dərslik üzərində iş:** Şagirdlər 32-ci səhifədəki nizam-intizam qaydalarının mənasını ayrı-ayrılıqda izah edirlər. Məktəbin nizam-intizam qaydalarına əməl edilməsi hər bir şagird üçün vəzifə olduğu onların nəzərinə çatdırılır.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər nizam-intizam qaydalarını izah edir və hər bir şagird üçün onun yerinə yetirilməsinin vəzifə olduğunu dərk etdiklərini əsaslandırırlar.

**Tətbiqetmə:** Metodik vəsaitin 35-ci səhifəsindəki sual və tapşırıqlar iş vərəqlərində icra olunur, cavablandırılır və yoxlanılır.



Azərbaycanımız

13 MƏKTƏBİMİZİN NİZAM-İNTİZAM QAYDALARI

Məktəbin daxilində bütün şagirdlərin əməl etməli olduğu qaydalar məktəbin nizam-intizam qaydaları adlanır.

BU QAYDALARA ƏMƏL ETMƏK BORCUMUZDUR:

- yoldaşlarımızla münasibətdə diqqətli və nəzakətli olmaq;
- məktəbin avadanlığına, özümün və yoldaşlarımın əşyalarına qayğı ilə yanaşmaq;
- valideynlərə və müəllimlərə hörmət etmək;
- səylə oxumaq, müəllimin tapşırıqlarını yerinə yetirmək;
- əməyi sevmək və özünəxidməti bacarmaq;
- məktəbin həyatında və sinifdə təmizliyə riayət etmək;
- vaxtdan səmərəli istifadə etmək;
- təmiz və səliqəli geyinmək;
- odla, qazla, elektrik cərəyanı ilə ehtiyatlı olmaq.

Məktəbin daxili nizam-intizam qaydalarını pozan məktəbliyə nə deyərdiniz?

32



Nümunəvi şagird olmaq üçün nəyə əməl etmək lazımdır?

Məktəbin avadanlığından necə istifadə edirsiniz?

Niyə şagirdlər məktəbin avadanlığından istifadə etdiyi üçün pul vermirlər?

33

**Sual və tapşırıqlar:**

1) Məktəbin daxili nizam-intizam qaydalarını əzbər bilmək vacibdir, yoxsa ona əməl etmək?

   əməl etmək ☐ əzbər bilmək ☐

2) Zəng vurulanda sinifdən müəllim əvvəl çıxmalıdır, yoxsa şagird?

   müəllim ☐ şagird ☐

3) Hansı şagirdin hərəkətini bəyənirsiniz? *(Qarşısında “+” işarəsi qoyun.)*



## Qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Məktəbin daxili nizam-intizam qaydalarını sadalayır. | | | | |
| 2. Məktəbin daxili nizam-intizam qaydalarını izah edir. | | | | |
| 3. Məktəbin daxili nizam-intizam qaydalarına əməl etməyin hər bir şagird üçün borc olduğunu əsaslandırır. | | | | |

# Kiçik summativ qiymətləndirmə nümunəsi

**Məqsəd:**
"Təbiət və biz", "Fərd və cəmiyyət" məzmun xətləri üzrə standartlara uyğun tədris edilən mövzular əsasında əldə olunan şagird nailiyyətinin yoxlanılması, qiymətləndirilməsi.

**Yoxlanılan və qiymətləndirilən şagird nailiyyətləri:**
∆ Varlıq və hadisələrin mahiyyətini sadə şəkildə təsvir edir; coğrafi obyektləri tanıyır, sadalayır, bir-birindən fərqləndirir; varlıqları bir-birindən fərqləndirir.
∆ Canlıların yaşamasını şərtləndirən amilləri tanıdığını, onları fərqləndirməyi bacardığını nümayiş etdirir.
∆ Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir, əlverişli və əlverişsiz ətraf mühiti bir-birindən fərqləndirdiyini nümayiş etdirir.
∆ "Ailə", "Fərd", "Kollektiv" anlayışlarını bir-birindən fərqləndirir, birgə fəaliyyətin faydalarını əsaslandırır.
∆ Büdcə haqqında sadə təsəvvürlərə malik olduğunu nümayiş etdirir.
∆ Gün rejimi tutmağı bacardığını nümayiş etdirir.
∆ Azərbaycan pullarını dəyərinə və nişanlarına görə bir-birindən fərqləndirir.
∆ Azərbaycan Respublikasının dövlət rəmzlərini tanıyır.
∆ Məktəbin nizam-intizam qaydalarını bildiyini nümayiş etdirir.

**İş forması:**
Bütün siniflə iş

**İş üsulu:**
Suallar, müzakirə

**Resurslar:**
İş vərəqləri, müxtəlif məzmunlu yoxlama vasitələri

**Dərsin gedişi**
Müəllim şagirdlərin dərs ilinin əvvəlindən nələri öyrəndiklərini qısa şəkildə, aramla sadalayır, onların artıq müəyyən bacarıqlara malik olmaları ilə bağlı yığcam söhbət təşkil edir. Söhbətin əsas mahiyyəti psixoloji cəhətdən şagirdlərin sərbəstliyini təmin etməyə, sual və tapşırıqları düzgün cavablandırmağa tam hazır olmalarına inam hissi aşılamağa yönəldilir. Yoxlanılacaq standartlarla bağlı müsahibə təşkil olunur. Metodik vəsaitin 36-37-ci səhifəsindəki nümunələr əsasında variantlar şəklində həm şagird üçün hazırlanmış və səviyyəsinə görə sadə, orta, çətin olan tapşırıqlar yazılmış iş vərəqləri şagirdlərə paylanılır. Tapşırıqların icrası üçün ayrılmış vaxtın müddəti elan olunur.

**Qiymətləndirmə vasitələri:**

**1) Canlı varlıq hansıdır?**

A) 

B) 

C) 

**2) Azərbaycan Respublikasının Dövlət Bayrağındakı ulduz hansıdır?**

A) 

B) 

C) 

**3) Hansı şəklin altında "kollektiv" sözü yazmaq doğrudur?**

A)  B)  C) 

**4) Məktəbdə birinci dərsiniz nə vaxt başlayır?**

A)  B)  C) 

**5) Sinfi təmiz saxlamağın ən yaxşı yolu nədir?**

A) onu zibilləməmək B) sakit durmaq C) dəhlizdə dayanmaq

**6) Ətraf mühit çirklənsə, nə baş verər?**

A) xəstəlik B) aclıq C) tənbəllik

**7) Biri ailə büdcəsi ilə bağlı deyil:**

A)  B)  C) 

**8) Azərbaycan Respublikasında hər bir I sinif şagirdinə pulsuz verilir:**

A) 

B)  C) 

**9) Canlıları yaşadır:**

1. su 2. stol 3. işıq 4. radio

A) 2, 4 B) 1, 3 C) 4

**10) Biri artıqdır:**

A)  B)  C) 

**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| *Öyrəndiklərini:*<br>1. Fərqləndirməyi bacarır. | | | | |
| 2. Tətbiq etməyi bacarır. | | | | |
| 3. Sadə bacarıqlar nümayiş etdirir. | | | | |

**Müəllim aşağıdakı suallara cavab axtarmaqla müəyyən nəticəyə gələ bilər:**

- Tədrisdə irəli gedilməlidir, yoxsa hansısa bir mövzuya daha çox və ya əlavə vaxt ayrılmalıdır?
- Planlaşdırılmış tədrisi bir neçə şagird üçün və ya bütün şagirdlər üçün sürətləndirilmiş formada apara bilərmi? Əgər belədirsə, bunun üçün ən əlverişli üsul hansıdır?
- Şagird bilik və bacarıqları tətbiq edə bilirmi?

## 14-cü dərs
## Məktəbdəki hüquqlarımız

**Məzmun xətti:**
Fərd və cəmiyyət

**Alt standart:**
2.4.2.
– Şagird hüquqlarını sadalayır.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Təhsil almağın, məktəbin kitabxanasından, idman zalından, kompüter zalından, tibb otağından, yeməkxanasından istifadə etməyin hər bir şagirdin hüququ olduğunu əsaslandırır.
∆ Məktəblinin hüquq və vəzifələrini bir-birindən fərqləndirir.

**İnteqrasiya:**
Fəndaxili: 2.4.1.

**İş forması:**
Qruplarla iş

**İş üsulu:**
Müzakirə

**Resurslar:**
Dərslik,
iş vərəqləri, lüğət,
şəkillər

**Anlayış:**
*Hüquq*

**Motivasiya:** Müəllim *"Azərbaycan Respublikasında uşaqların təhsil alması vəzifədir, borcdur, yoxsa hüquqdur?"* sualı ilə şagirdlərə müraciət edir. Keçən dərslərdə şagirdlərin "borc" və "vəzifə" anlayışları barədə öyrəndiklərindən istifadə etməklə şagirdlərə bələdçilik edir. Sualla bağlı şagirdlərin cavabları ümumiləşdirilir.

**Tədqiqat sualı:** Məktəbli üçün hüquq nədir?

**Tədqiqatın aparılması:** Şagirdlər 3 qrupa bölünür.
**I qrup** birinci sinif şagirdlərinin hansı kitablardan pulsuz istifadə etmələrinə aid nümunələr nümayiş etdirməli;
**II qrup** şagirdlərin məktəb daxilində məktəbə aid avadanlıqların adlarını müəyyən etməli;
**III qrup** isə işıqforun yanında minik avtomobilinin şüşəsini silən məktəbyaşlı uşağın da əks olunduğu şəkli sözlə təsvir etməlidir.

**İnformasiya mübadiləsi:** I qrupun təmsilçisi pulsuz istifadə etdikləri kitablardan (dərsliklərdən) bir neçəsini nümayiş etdirir.
II qrupun təmsilçisi tədqiqatla bağlı avadanlıqların bir neçəsinin adını sadalayır.
III qrupun təmsilçisi təqdim olunan şəkildəki təsvirlər barədə məlumat verir.

**İnformasiyanın müzakirəsi:** Müəllim şagirdlərə evdəki avadanlıqlarla məktəbdəki avadanlıqlardan istifadənin fərqini, evdəki bədii kitablarla dərs kitablarının ödənişindəki fərqi, dərs vaxtı məktəbdə olan uşaqla küçədə avtomobilə xidmət edən uşağın fərqini müəyyən etməyi tapşırır. Şagirdlər fikirlərini ifadə etdikcə müəllim onlara *niyə? nə üçün?* sualları ilə müraciət edir. Bu da şagirdlərin mühakimə qabiliyyətini, məntiqi təfəkkür tərzini inkişaf etdirir. Şagirdlər izahlı lüğətdən istifadə etməklə "*hüquq*" anlayışının mənasını öyrənirlər.

**Dərslik üzərində iş:** 36-cı səhifədəki şəkillərin mənası şagirdlər tərəfindən izah olunduqdan sonra müəllim *"Məktəbdə daha hansı hüquqlarınız var?" və "Hüquq və vəzifələrərinizin bir-birindən fərqi nədir?"* sualları ilə şagirdlərə müraciət edir. 37-ci səhifədəki materiallarla tanışlıqdan sonra şagirdlər hüquq və vəzifə anlayışlarını müqayisə edirlər.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər məktəbin avadanlıqlarından, idman zalından, yeməkxanasından, dərsliklərdən pulsuz istifadə edilməsinin hər bir məktəblinin hüququ olduğunu dərk edir və əsaslandırırlar. Özlərinin məktəbdəki hüquqlarını sadalayırlar.

**Tətbiqetmə:** Metodik vəsaitin 39-cu səhifəsindəki tapşırıqlar iş vərəqlərində yerinə yetirilir və yoxlanılır.



Azərbaycanımız

14 MƏKTƏBDƏKİ HÜQUQLARIMIZ

Hər bir şagirdin dərslikdən pulsuz istifadə etməsi, məktəbdə təhsil alması, kitabxanadan, idman zalından, kompüterdən istifadə etməsi onun hüququdur.

Hüquqlarımız qanunla qorunur.

Sizcə, məktəbin avadanlığından istifadə etdikdə niyə sizə mane olmurlar?

36



Azərbaycan Respublikasında bütün məktəblilərin hüquqları bərabərdir.

Məktəbdəki hüququnuzla vəzifənizin fərqini izah edin.

37

**Sual və tapşırıqlar:**

1) Məktəbdə hüquqlarınız pozulsa, kimə müraciət etməlisiniz?
A) sinif rəhbərinə B) həkimə C) sinif yoldaşınıza

2) Aşağıdakılar hüququnuzdurmu? (Qarşısında “+” işarəsi qoyun.)

| | | |
|---|---|---|
| Sağlam olmaq | bəli ☐ | xeyr ☐ |
| Nizam-intizam qaydalarına əməl etmək | bəli ☐ | xeyr ☐ |
| Səliqəli geyinmək | bəli ☐ | xeyr ☐ |
| Məktəbin kitabxanasından istifadə etmək | bəli ☐ | xeyr ☐ |

3) Məktəblinin hüququnun pozulmasına aid iki nümunə yazın.

______________________________

4) Məktəbə nə gətirmək olmaz?

A)  B)  C) 

**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Məktəbdəki hüquqlarını sadalayır. | | | | |
| 2. Məktəblinin hüquq və vəzifələrini bir-birindən fərqləndirir. | | | | |
| 3. Məktəbli üçün hüququn nə olduğunu əsaslandırır. | | | | |

## 15-ci dərs

# Davranış da mədəniyyətdir

**Məzmun xətti:**
Mənəviyyat

**Alt standart:**
3.1.1.
– İnsanlararası ünsiyyət etiketlərinə (*salamlaşmaq, özünütəqdim, müraciət, müraciətə cavab, xudahafizləşmək*) əməl edir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Ünsiyyət mədəniyyəti haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.
∆ Görüşmə, ayrılma etiketlərində mədəniyyət nümayiş etdirir.
∆ İnsanlarla ünsiyyət zamanı səmimi olmağın zəruriliyini əsaslandırır.

**İnteqrasiya:**
Fəndaxili: 3.1.2.
Fənlərarası: A.d.: 1.2.2.

**İş forması:**
Böyük qruplarla iş, kiçik qruplarla iş

**İş üsulu:**
Rollar üzrə oyun, müzakirə, söz assosiasiyaları

**Resurslar:**
Dərslik, iş vərəqləri, şəkillər, videolent

**Anlayış:**
*Davranış*

**Motivasiya:** Müəllim elektron lövhədə görüşüb ayrılma, müraciət etiketləri ilə bağlı qısa videolent təqdim edir. Şagirdlərdən videolentdə nədən söhbət getdiyi soruşulur. Cavablar ümumiləşdirilir.

**Tədqiqat sualı:** Davranış niyə mədəniyyət hesab olunur?

**Tədqiqatın aparılması:** Şagirdlər qruplara bölünür. Bir qrup görüşmə, digər qrup ayrılma davranışları nümayiş etdirməli, başqa bir qrup isə tamaşaçı qismində iki qrupun işini müşahidə etməlidir. Müəllim həm iştirakçıların, həm də müşahidəçilərin rolları barədə onlara müəyyən izahatlar verir.

**İnformasiya mübadiləsi:** Həm “iştirakçı”lardan, həm də “müşahidəçi”lərdən bir nəfər görülən iş barədə qısa məlumat verir.

**İnformasiyanın müzakirəsi:** Müəllim müzakirə zamanı şagirdin diqqətini müxtəlif davranış məqamlarını əks etdirən və lövhədən asılan şəkillərə yönəldir. Eyni zamanda həm iştirakçılara, həm də müşahidəçilərə yönəldici suallarla müraciət edir:

*1) Axşam qonaq getdiyiniz evdəki insanlarla görüşüb ayrılanda nə deməlisiniz?*
*2) Birisindən bir ünvanı soruşanda necə müraciət edirsiniz?*
*3) Hansı davranışlardan xoşunuz gəlmir?*
*4) Ünsiyyətdə olduğunuz insanlardan nə zaman üzr istəyirsiniz?*

Müəllim müzakirələri yekunlaşdırır və ümumiləşdirir. Şagirdlər “xeyir”, “axşam”, “sabah”, “xoş” sözlərindən davranış mədəniyyətinə uyğun ifadələr düzəldirlər.

**Dərslik üzərində iş:** Müəllim oxu qabiliyyətinin daha yaxşı olması ilə seçilən şagirdlərin fəallığı ilə 38-ci səhifədəki, sonra isə 39-cu səhifədəki mətnlərin məzmununu bütün şagirdlərə çatdırır. (Mətnin məzmununun mənimsədilməsində oxu vərdişindən ilk dəfə istifadə olunduğundan müəllim yardımçı ola bilər).

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər davranışlarında mədəni olduqlarını, insanlarla ünsiyyət zamanı müxtəlif ünsiyyət formalarından istifadə edildiyini öyrənir, müxtəlif ünsiyyət formalarına yiyələndiklərini nümayiş etdirirlər.

**Tətbiqetmə:** Dərsliyin 38-39-cu səhifələrindəki suallar cavablandırılır. Metodik vəsaitin 41-ci səhifəsindəki tapşırıqlar isə iş vərəqlərində yerinə yetirilir və yoxlanır.



Mənəviyyatımız

15 DAVRANIŞ DA MƏDƏNİYYƏTDİR

— Salam!
— Salam!
— Gəl tanış olaq. Mənim adım Tofiqdir.
— Mənim də adım Samirdir. Birinci sinifdə oxuyuram.
— Mən də birinci sinifdə oxuyuram.

— Sən boş vaxtında nə ilə məşğul olursan, Samir?
— Təbiətin qoynunda gəzirəm, idmanla məşğul oluram. Bəs sən boş vaxtlarında hansı işlə məşğul olursan, Tofiq?
— Şəkil çəkirəm, quşlar üçün yuva düzəldirəm.

Samirlə Tofiqin ünsiyyəti xoşunuza gəldimi?

Siz ilk dəfə tanış olduğunuz insanla necə ünsiyyət qurursunuz?

38



— Samir, səninlə tanış olmağıma çox şad oldum. Sən məndə idmana qarşı böyük maraq oyatdın.
— Elə sənin də şəkil çəkmək bacarığın, quşlar üçün yuva qurmağın məndə xoş duyğular yaratdı.

Tofiq saatına baxdı. Samir başa düşdü ki, Tofiq getmək istəyir.

— Salamat qal, Samir!
— Gələn görüşlərədək, Tofiq!

İnsanlarla ünsiyyət zamanı mehriban münasibətdə olmağa çalışın.

Ünsiyyət zamanı səmimi olmağa çalışın.

Görüşüb ayrılanda üzünüzdən təbəssüm əskik olmasın.

39

**Sual və tapşırıqlar:**

1) Səhər tezdən qarşılaşdığınız adamla görüşəndə nə deyirsiniz?
A) Əhsən!   B) Gününüz xeyir!   C) Sabahınız xeyir!

2) Doğru hesab etdiklərinizin qarşısında “+” işarəsi qoyun.
- yaşca böyüklərə “siz” deyə müraciət etmək ☐
- verilən suallara cavab verməmək ☐
- yad adamın salamını almamaq ☐
- özünü təqdim edəndə adını demək ☐

3) İnsanlardan ayrılanda hansı sözləri demək lazımdır?
A) xudahafiz, salamat qal   B) xoş gördük, necəsiniz   C) salam, əziz dost

**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. İnsanlararası ünsiyyət etiketlərinə (salamlaşmaq, özünütəqdim, müraciət, müraciətə cavab, xudahafizləşmək) əməl edir. | | | | |
| 2. İnsanlararası ünsiyyət etiketlərinin (salamlaşmaq, özünütəqdim, müraciət, müraciətə cavab, xudahafizləşmək) mahiyyətini izah edir. | | | | |
| 3. İnsanlararası ünsiyyət etiketlərini (salamlaşmaq, özünü təqdim, müraciət, müraciətə cavab, xudahafizləşmək) sadalayır. | | | | |

## 16-cı dərs

## Yanlış davranışlar

**Məzmun xətti:**
Mənəviyyat

**Alt standart:**
3.1.2
– Etiketdənkənar davranışları fərqləndirir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Davranışlarında diqqətli olur.
∆ Səhv hərəkətini tez anlayır və üzr istəyir.
∆ Qarşılaşdığı yanlış davranışlardan nəticə çıxarır.

**İnteqrasiya:**
Fəndaxili: 3.1.1.
Fənlərarası:
Tex.: 3.1.3.

**İş forması:**
Qruplarla iş

**İş üsulu:**
Rollar üzrə oyun, müzakirə

**Resurslar:**
Dərslik, şəkillər, iş vərəqləri

**Motivasiya:** Lövhədən asılmış şəkildə iki nəfər uşaq təsvir olunur. Onlardan biri bilmədən digərinin ayağını tapdalayır, ancaq üzr istəmir. Ağrıdan üzünü turşudana, ayağı tapdalanana saymazyana baxan şagird yoluna davam edir. Müəllim şagirdlərin diqqətini şəklə yönəldir. Əvvəlcə bir neçə şagirdə şəkildə gördüklərini təsvir etməyi tapşırır. *“Şəkildə gördüklərinizdən hansı nəticəni çıxardınız?”* – deyə şagirdlərə müraciət edir. Cavablar dinlənilir və ümumiləşdirilir.

**Tədqiqat sualı:** İnsanlar bir-birindən nəyə görə üzr istəyirlər?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri qruplara bölür. Hər qrupun görəcəyi işlər onlara paylanmış iş vərəqlərində qeyd olunur. **I qrupun** üzvləri nəyi isə müzakirə edirmiş kimi mədəni şəkildə fikir mübadiləsi edirlər. **II qrupun** üzvləri isə ucadan danışmaqla və sərbəst hərəkət etməklə **I qrupa** maneçilik törədirlər. **III qrup** yanlış davranışları müəyyən edir.

**İnformasiya mübadiləsi:** Hər qrupun təmsilçisi rollar üzrə gördükləri işlə bağlı qısa informasiya verir.

**İnformasiyanın mübadiləsi:** Müəllimin bələdçiliyi ilə şagirdlər müzakirə zamanı aşağıdakılara münasibət bildirirlər:
1) *Yanlış davranışa səbəb nədir?*
2) *Sizin üzr istəməkdən xoşunuz gəlirmi? Niyə?*
3) *Hansı davranışlardan xoşunuz gəlmir?*
4) *Yemək masası arxasında hansı davranışa yol vermək olmaz?*
5) *Daha cox kimlərin davranışlarından nümunə götürürsünüz?*

Müəllim müzakirələri yekunlaşdırır.

**Dərslik üzərində iş:** 40-cı səhifədəki mətnin məzmunu ilə tanışlıq başa çatdıqdan sonra müəllim təsvir olunan əhvalat barədə şagirdlərin fikirlərini ümumiləşdirir. Mətnlə bağlı sual və tapşırıqlar cavablandırılır.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər müəllimin köməyi ilə bu nəticəyə gəlirlər ki, hər bir davranış mədəniyyət göstəricisidir. Ona görə də davranışlarda diqqətli olmaq, cüzi bir yanlışlığa yol verdikdə üzr istəmək lazımdır.

**Tətbiqetmə:** Metodik vəsaitin 43-cü səhifəsindəki suallar cavablandırılır, tapşırıqlar iş vərəqlərində yerinə yetirilir və yoxlanılır.


Mənəviyyatımız

16 YANLIŞ DAVRANIŞLAR

Vüqar nədənsə bu gün çox narahat görünürdü. Müəllimimiz də bunu hiss etmişdi. O, Vüqardan bunun səbəbini soruşanda əvvəlcə Vüqar heç nə demək istəmədi. Biz də onun narahatlığına son qoyulmasını istəyirdik. Axırda o, şahidi olduğu bir əhvalatı danışdı:

— Dünən məktəbdən gedəndə iki uşağın parkdakı oturacaqda uzandığını gördüm. Dincəlmək üçün parka gələn qarı və qoca oturacaqda əyləşmək istədilər. Lakin o iki uşaq uzandıqları yerdən tərpənmədi.

Oradan keçənlər də sərt baxışlarla həmin uşaqları süzürdülər. Bir az aralıdakı oturacaqda oturan orta yaşlı qadın və kişi qarı ilə qocaya yaxınlaşdılar. Onları öz yerlərinə dəvət etdilər. O iki uşaq isə yerlərindən qalxmadı. Mən onların əvəzinə xəcalət çəkdim.

Vüqarın narahat olmasının səbəbini izah edin. Mətnin məzmunundan hansı nəticəni çıxardınız?

40


Şəkildə gördükləriniz haqqında danışın.

41

**Sual və tapşırıqlar:**

1) Demək olarmı ki, skamyada uzanıb yaşlı adamlara yer verməyən uşaqlar istirahət hüququndan istifadə edirlər? Niyə?

Bəli ☐ Xeyr ☐

2) “Etiket qaydaları” ifadəsini aşağıdakılardan hansı ilə əvəz etmək olar?
A) təhlükəsizlik qaydaları B) danışıq qaydaları C) davranış qaydaları

3) Avtobusda oturduğunuz yeri əli əsalı qocaya verərdiniz, yoxsa həmin qocadan cavan olan valideyninizə? Niyə?

---

4) Şəkillərə görə yanlış hərəkət edən uşaqları müəyyən edin.
A) 1, 3
B) 2, 3
C) 1, 2, 3


1)


2)


3)

**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Etiketli və etiketdənkənar davranışları fərqləndirir. | | | | |
| 2. Qarşılaşdığı yanlış davranışlardan nəticə çıxarır. | | | | |
| 3. Davranışlarında diqqətli olduğunu nümayiş etdirir. | | | | |

## 17-ci dərs

## İnsanın ən yaxşı xüsusiyyətləri

**Məzmun xətti:**
Mənəviyyat

**Alt standart:**
3.2.1.
– Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri *(düzlük, doğruçuluq, çalışqanlıq, səmimilik*) sadə şəkildə şərh edir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Düzgünlüyün, doğruçuluğun, səmimiliyin, çalışqanlığın insan üçün yaxşı keyfiyyətlər olduğunu əsaslandırır.
∆ İnsanlarla münasibətində düzlük, doğruçuluq, səmimilik, çalışqanlıq nümayiş etdirir.

**İnteqrasiya:**
Fəndaxili: 3.1.1., 3.1.2.
Fənlərarası:
A.d.: 3.2.2.

**İş forması:**
Qruplarla iş

**İş üsulu:**
Müzakirə

**Resurslar:**
Dərslik,
iş vərəqləri, şəkillər, lüğət

**Motivasiya:** Müəllim vaxtilə şagirdi olmuş bir nəfər haqqında əhvalat danışır:
*– Bir neçə il bundan əvvəl birinci sinifdə dərs deyirdim. Ağıllı bir şagirdim oxumaqda, öyrənməkdə yoldaşlarından geri qalırdı. Mənim ona böyük inamım olsa da, o, öyrənməkdə hələ də mənim etimadımı doğrultmurdu. Bir gün onunla söhbət edərkən dedim ki, mən elə bilirəm, sən ciddi çalışsan, sinifdə ən nümunəvi şagird olarsan. O, səmimi görkəm alıb dedi ki, mən vaxtımın çoxunu həyətdə oynamağa, televizora baxmağa sərf edirəm.*
*O, doğru deyirdi. Həmin şagird tənbəlliyin daşını atmağa, çalışqan olmağa söz verdi. Müəyyən müddətdən sonra, doğrudan da, ən nümunəvi şagird oldu. Sizcə, həmin şagird hansı xüsusiyyətlərinə görə sinifdə ən nümunəvi şagird oldu?*
Şagirdlərin verdikləri cavablar ümumiləşdirilir.

**Tədqiqat sualı:** Yaxşı insanların hansı xasiyyətləri olur?

**Tədqiqatın aparılması:** Şagirdlər qruplara bölünür. Qruplara adlar verilir: “Çalışqan”, “Səmimi”, “Doğru”. Qruplar izahlı lüğətdən istifadə edərək daşıdığı adlarla bağlı məlumat əldə edirlər.

**İnformasiya mübadiləsi:** Hər qrupun təmsilçisi informasiyaları iş vərəqindən oxumaqla elan edir və iş vərəqini lövhədən asır.

**İnformasiyanın müzakirəsi:** Müəllim aşağıdakı yönəldici suallardan istifadə edir.
*1) Siz çalışqanlıqla nəyə nail olmuşsunuz?*
*2) İnsanlara qarşı səmimi olmağın əhəmiyyəti nədir?*
*3) Düzlüyə, doğruçuluğa, çalışqanlığa aid hansı atalar sözlərini bilirsiniz?*
Müzakirə müəllim tərəfindən yekunlaşdırılır.

**Dərslik üzərində iş:** 42-43-cü səhifələrdəki mətn oxunur. Anarın, Dilbərin, Elmanın, Lalənin fikirlərinə münasibət bildirirlər.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər insan üçün düzgünlüyün, doğruçuluğun, çalışqanlığın, səmimiliyin əsas keyfiyyətlərdən olduğunu əsaslandırır və həmin keyfiyyətləri sadə dillə şərh edirlər.

**Tətbiqetmə:** Metodik vəsaitin 45-ci səhifəsindəki tapşırıqlar iş vərəqlərində yerinə yetirilir, suallar cavablandırılır, yoxlanılır.

Mənəviyyatımız

## 17 İNSANIN ƏN YAXŞI XÜSUSİYYƏTLƏRİ

Dərslər qurtardıqdan sonra Elşən məktəbin həyətində yoldaşları ilə insana aid ən yaxşı xüsusiyyətlər haqqında söhbət edirdi. Hərə bir keyfiyyəti əsas götürürdü.



Anar deyirdi ki, insan üçün ən yaxşı xüsusiyyət səmimilikdir. İnsan həmişə səmimiliyin tərəfdarı olmalıdır.

Söhbətə qoşulan Dilbər insan üçün düzlüyü ən yaxşı xüsusiyyət hesab edirdi. İnsan heç vaxt yalan danışmamalı, həmişə sözün düzünü deməlidir.

Elman isə çalışqanlığı, zəhmətsevərliyi ən yaxşı xüsusiyyət hesab edirdi. Onun fikrincə, insan öz istəklərinə çalışqanlığı ilə çata bilər.

**Bəs siz insan üçün nəyi ən yaxşı xüsusiyyət hesab edirsiniz?**

42



Lalə düzlüyün, sadəliyin insan üçün yaxşı xüsusiyyət olduğunu söylədi.

Kənardan uşaqların söhbətini dinləyən müəllim onlara yaxınlaşıb dedi:

— Bu dediklərinizin hamısı insan mənəviyyatını, yaxşı xüsusiyyətlərini zənginləşdirir.

**Tanıdığınız adamlar içərisində kim bu xüsusiyyətlərin hamısına malikdir?**

43

**Sual və tapşırıqlar:**

1) İnsanlara aid ən yaxşı xüsusiyyətlər haqqında sizə daha maraqlı məlumatları kim verir?

____________________________________

2) Kimdən daha çox nümunə götürürsünüz? *(Münasib bildiyinizin qarşısında* “+” *işarəsi qoyun.)*

Müəllimdən ☐ Atadan ☐ Babadan ☐ Sinif yoldaşından ☐

3) Səmimilik niyə yaxşı keyfiyyət hesab olunur? ______________________________

4) Xanalara saitlər əlavə etməklə söz düzəldin. | *h* | | *l* | | *l* | *l* | | *q* |

5) Xanalara samitlər əlavə etməklə söz düzəldin. | | *ə* | | *i* | | *i* |

6) “Doğruya zaval yoxdur” atalar sözünün mənasını izah edin.

______________________________________________________________________

7) Səhvini boynuna alan adam necə adamdır?
A) səmimi B) çalışqan C) səbirsiz

**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir. | | | | |
| 2. Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri (düzlük, doğruçuluq, çalışqanlıq, səmimilik) sadə şəkildə şərh edir. | | | | |
| 3. Mənəvi keyfiyyətləri (düzlük, doğruluq, səmimilik, çalışqanlıq) fərqləndirir və onları seçməyi bacarır. | | | | |

## 18-ci dərs

## Xoşlamadığım xüsusiyyətlər

**Məzmun xətti:**
Mənəviyyat

**Alt standart:**
3.2.2.
– Mənəviyyata zidd xüsusiyyətlərə (*yalançılıq, paxıllıq, xəbərçilik*) münasibət bildirir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Mənəviyyata zidd xüsusiyyətləri sadalayır.
∆ Yalançılığın, paxıllığın, xəbərçiliyin insanı hörmətdən saldığını əsaslandırır.
∆ Mənəviyyata zidd keyfiyyətləri fərqləndirir.

**İnteqrasiya:**
Fəndaxili: 3.2.1.

**İş forması:**
Qruplarla iş

**İş üsulu:**
Müzakirə

**Resurslar:**
Dərslik,
iş vərəqləri, lüğət

**Anlayışlar:**
*Yalançılıq, paxıllıq, xəbərçilik*

**Motivasiya:** Müəllim aşağıdakı suallarla şagirdlərə müraciət edir:
1. *Xəbərçilik niyə pis xüsusiyyət sayılır?*
2. *Yalançı adamla düz danışan adamı necə fərqləndirirsiniz?*
3. *Sizcə, insanların müxtəlif xüsusiyyətlərə malik olmaları nə ilə bağlıdır?*

Müəllim cavabları sistemləşdirir.

**Tədqiqat sualı:** Hansı xüsusiyyətləri heç kəsə arzulamırsınız?

**Tədqiqatın aparılması:** Şagirdlər üç qrupa bölünür. Hər üç qrupa aşağıdakıları izah etmək üçün lüğətdən istifadə etmək imkanı verilir:
I qrup yalançılıqla bağlı;
II qrup paxıllıqla bağlı;
III qrup xəbərçiliklə bağlı məlumat toplayır.

**İnformasiya mübadiləsi:** Qrup təmsilçiləri növbə ilə öz informasiyalarını elan edir, qeydlər yazılmış iş vərəqlərini lövhədən asır.

**İnformasiyanın müzakirəsi:** Mənəviyyata zidd hər hansı xüsusiyyətin müzakirəsi zamanı *niyə?, nə üçün?* suallarından istifadə etməklə şagirdlərə öz fikirlərini həyatla əlaqələndirməyə yardımçı olur. Eyni zamanda aşağıdakı suallardan da istifadə edir:
*1) Xəbərçilərə nə məsləhət verərdiniz?*
*2) Niyə "Yalan ayaq tutar, yeriməz" deyirlər?*
*3) Sizcə, paxıllıq nə ilə bağlıdır?*
Şagirdlərin fikirləri ümumiləşdirilir.

**Dərslik üzərində iş:** 44-cü səhifədəki şeir parçasında sadalanan mənəviyyata zidd xüsusiyyətlər şərh olunur. Müəllim Xaqani Şirvaninin timsalında Azərbaycan yazıçılarının da həmişə mənəviyyata zidd xüsusiyyətlərə tənqidi münasibət bəslədiklərini vurğulayır. 45-ci səhifədəki məlumatı bir neçə şagird şərh edir. Şagirdlər müəllimin köməyindən və lüğətdən istifadə etməklə yalançılıq, paxıllıq, xəbərçilik anlayışlarının mənasını öyrənirlər.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər mənəviyyata zidd xüsusiyyətləri sadalayır, onların insanlara fayda vermədiyini əsaslandırır, fikirlərini bədii nümunələrlə dolğunlaşdırırlar.

**Tətbiqetmə:** Metodik vəsaitin 47-ci səhifəsindəki sual və tapşırıqlar yerinə yetirilir. Bütün qeydlər iş vərəqlərində aparılır və yoxlanılır.



Mənəviyyatımız

18 XOŞLAMADIĞIM XÜSUSİYYƏTLƏR

İstəsən güzgütək saf olsun ürək,
Sinəndən on şeyi atasan gərək:
Haram, qeybət, kin, paxıllıq, tamah,
Hiylə, yalan, həsəd, ədavət, kələk.

*Xaqani Şirvani*

Şeirin son iki misrasındakı sözlərə diqqət yetirin. Burada mənəviyyata zidd olan xüsusiyyətlər sadalanır. Bu xüsusiyyətlər qəlbi təmiz olan adamlara aid deyil. Yalançı, paxıl, xəbərçi, tamahkar insanlar hörmət qazana bilməzlər. Elə adamların həyatda dostu olmur, onlar mənəvi cəhətdən kasıb olurlar.

Kimə paxıl deyirlər?

Yalançılıq niyə pis xüsusiyyət hesab edilir?

Şəkildə gördükləriniz haqqında danışın.

44



Yaxşılıqla pisliyi müqayisə edin.

Çalışın ki, yaşıdlarınızın xoşagəlməz xüsusiyyətləri dəyişsin. Onlar yalandan, hiylədən, qeybətdən, kələkdən uzaq olsunlar. Belə olsa, dünyamızda yaxşı insanların sayı çoxalar.

Xəbərçilik edən adama necə münasibət bəsləyirsiniz?

45

**Sual və tapşırıqlar:**

1) Xoşlamadığınız 3 xüsusiyyətin adını yazın.

______________________________

2) Yaxşı xüsusiyyətlərlə pis xüsusiyyətləri müqayisə edin.

______________________________

3) Yalançılıq haqqında bir atalar sözü yazın.

______________________________

4) Pis xüsusiyyətlərdən qurtulmaq mümkündürmü? Əsaslandırın.

Bəli______________________ Xeyr ______________________

5) Doğru olmayan hansıdır?

A) yalançılıq – düz danışmamaq
B) tamah – paxıllıq etmək
C) xəbərçilik – söz gəzdirmək

## Qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir. | | | | |
| 2. Mənəviyyata zidd xüsusiyyətlərə (yalançılıq, paxıllıq, xəbərçilik) münasibət bildirir. | | | | |
| 3. Mənəviyyata zidd xüsusiyyətləri (yalançılıq, paxıllıq, xəbərçilik) fərqləndirir. | | | | |

## 19-cu dərs — Din

**Məzmun xətti:**
Mənəviyyat

**Alt standart:**
3.3.1.
– Təsvirdə dini rəmzləri (*ibadətgahlar, nişanlar, dini kitablar, əşyalar*) fərqləndirir.
3.3.2.
– Din haqqında ilkin təsəvvürlərini sadə şəkildə izah edir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Dinini tanıyır.
∆ Başqa dinlərin də adlarını sadalayır.
∆ Dini rəmzləri fərqləndirir.
∆ Dinlər seçməkdə insanların sərbəst olduğunu bilir.
∆ İslam dininin Peyğəmbərini tanıyır.

**İş forması:**
Qruplarla iş

**İş üsulu:**
Müzakirə, BİBÖ

**Resurslar:**
Dərslik,
iş vərəqləri, şəkillər,
Quran

**Anlayışlar:**
*Din, ibadət*

**Motivasiya:** Müəllim şagirdlərdən hansı dinlərin adını bildiklərini, hansı ziyarətgahlarda ibadətgahlarda olduqlarını soruşur. Cavablar ümumiləşdirilir. Müəllim bildirir ki, Allah hamı üçün birdir. Allahı sevmək hər kəs üçün müqəddəs bir işdir.

**Tədqiqat sualı:** Dinimizə sevgi nədən yaranıb?

**Tədqiqatın aparılması:** Müəllim lövhəni aşağıdakı formada 3 hissəyə bölür.

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|

Şagirdlər qruplara bölünür. Müəllim onlara izahat verir ki, iş vərəqlərini də lövhədə gördükləri kimi 3 hissəyə bölsünlər. Tədqiqatla bağlı bildiklərini I, bilmək istədiklərini II, öyrəndiklərini isə III sütuna qeyd etsinlər. (“Mənim gün rejimim” mövzusunun tədrisi zamanı əlifba təlimi tam başa çatmadığından qrupların məlumatlarını lövhədə müəllim özü qeyd etmişdi). Ehtiyac duyduqda anlayışlarla bağlı izahlı lüğətdən istifadəyə də şərait yaradılır.

**İnformasiya mübadiləsi:** Qrup təmsilçiləri informasiyalarını elan etdikdən sonra iş vərəqlərini lövhədən asırlar. Şagirdlər din və ibadət anlayışlarının mənasını lüğətdən istifadə etməklə öyrənirlər.

**İnformasiyanın müzakirəsi:** Müəllim qruplara mövzu ilə bağlı sual tərtib etdirir. Qruplar bir-birinin suallarını izah edir. Müəllim yönəldici suallardan da istifadə edir:
*1) Dinimizin adı nədir?*
*2) Dinimizin peyğəmbəri kimdir?*
*3) Allahımızı sevməyi kimdən öyrənmişsiniz?*
Müəllim Quran kitabını göstərir və onun İslam dininin müqəddəs kitabı olduğunu bildirir.

**Dərslik üzərində iş:** 46-cı səhifədəki materialla tanışlıq zamanı şagirdlər müəllimin köməyi ilə “Din insanların Allaha ibadət yoludur” ifadəsinin mənasını öyrənirlər. 47-ci səhifədəki şəkillərin mənası izah edildikcə şagirdlər başqa dinlər haqqında təsəvvürlərini genişləndirir, dini rəmzləri fərqləndirirlər.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər dinini tanıyır, dinə sevginin Allaha olan sevgidən yarandığını əsaslandırır, din seçməkdə insanların sərbəst olduğunu bilir, dini rəmzləri fərqləndirirlər.

**Tətbiqetmə:** Metodik vəsaitin 49-cu səhifəsindəki sual və tapşırıqlar cavablandırılır. Bəziləri iş vərəqlərində yerinə yetirilir. Müəllim görülən işləri yoxlayır, münasibət bildirir.



Mənəviyyatımız

19 DİN

Din insanların Allaha ibadət yoludur.

Ölkəmizdəki insanların əksəriyyəti müsəlmandır. Müsəlmanların dini İslam, Peyğəmbəri isə həzrəti-Məhəmməddir. İslam dini sülh, elm, saflıq, düzlük dinidir. İslamı qəbul edənlərə müsəlman deyirlər. Müsəlmanlar üçün Allah birdir. Biz Allahımızı sevirik. Hər hansı dini qəbul etməkdə insanlar sərbəstdirlər.

Azərbaycanda yəhudilik və xristianlıq dinlərini qəbul edən insanlar da vardır. Ölkəmizdə bu dinlərin də özünəməxsus ziyarətgahları var. Dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikasında bütün vətəndaşların hüquqları bərabərdir.

Dünya müsəlmanlarının ən böyük ziyarətgahı olan Kəbə Səudiyyə Ərəbistanının Məkkə şəhərində yerləşir.

Dünya müsəlmanları Qurban bayramında Məkkə şəhərindəki Kəbəni ziyarət etməyə gedirlər.

Hansı dinləri tanıyırsınız?

Kəbə hansı şəhərdə yerləşir?

Kimə müsəlman deyilir?

46




Dinlərin müqəddəs kitabı və ziyarətgahı olur.

Hansı ziyarətgahları tanıyırsınız?

Dinlərə aid müqəddəs kitabları sadalayın.

47

**Sual və tapşırıqlar:**

1) Bildiyiniz dinlərin adlarını əlifba sırası ilə yazın.

_______________________________________________

2) Hansı dini ayinlərin, mərasimlərin adlarını bilirsiniz?

_______________________________________________

3) İslam dininə görə:
Təbliğ olunur. Qadağandır.

_______________ _______________

4) Quran hansı dinin müqəddəs kitabıdır?
A) İslam B) yəhudilik C) xristianlıq

5) Yaşadığınız əraziyə yaxın hansı dini ziyarətgah vardır?

_______________________________________________

## Qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Dinlər haqqında ilkin təsəvvürlərini sadə şəkildə izah edir. | | | | |
| 2. Təsvirlərdə hər bir dinin rəmzlərini fərqləndirir. | | | | |
| 3. Təsvirlərdəki dini rəmzləri (ibadətgahlar, nişanlar, dini kitablar) tanıyır. | | | | |
| 4. Əsas dinlərin adlarını (islam, xristianlıq, yəhudilik) sadalayır. | | | | |

## 20-ci dərs

## Hörmət və qayğı

**Məzmun xətti:**
Mənəviyyat

**Alt standart:**
3.4.1.
– Mənəvi borc (*böyüklərə hörmət, kiçiklərə və xəstələrə qayğı*) haqqında təsəvvürlərini ifadə edir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Böyüyə hörmət;
∆ Kiçiyə qayğı;
∆ Xəstəyə mərhəmət göstərməyin mənəvi borc olduğunu dərk edir.

**İnteqrasiya:**
Fəndaxili: 3.2.1.

**İş forması:**
Kiçik qruplarla iş

**İş üsulu:**
Müzakirə, müsahibə

**Resurslar:**
Dərslik,
iş vərəqləri,
videomaterial, lüğət

**Anlayışlar:**
*Qayğı, mərhəmət, borc*

**Motivasiya:** Elektron lövhədə məktəblilərin ahıllar evinə ziyarəti, körpələr evi və xəstəxanalarla bağlı material nümayiş etdirilir. Müəllim şagirdlərin reaksiyasını yoxlayır:

1) *Sizcə, qocalar onların yanına ziyarətə gələn məktəbliləri gördükdə hansı hisləri keçirirlər?*
2) *Xəstələr xəstəxanalara hansı ümidlə gedirlər?*

**Tədqiqat sualı:** Kimin qayğıya, hörmətə daha çox ehtiyacı var?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri qruplara bölür. Qruplara tədqiqat sualı yazılmış iş vərəqləri paylanılır. Müəllim əlavə olaraq, şagirdlərə bildirir ki, nə üçün lüğətdən və lövhədəki şəkillərdən istifadə etmək olar.

**İnformasiya mübadiləsi:** Qrup təmsilçiləri lüğətdən, şəkillərdən, videomateriallardan istifadə etməklə, qrupların topladıqları informasiyaları elan edirlər. Şagirdlər lüğətdən istifadə etməklə anlayışların mənasını öyrənir.

**İnformasiyanın müzakirəsi:** Müzakirə zamanı müəllim bələdçi qismində aşağıdakı yönəldici suallarla müraciət edir:

1. *Mənəvi və maddi borcun fərqi nədir?*
2. *Siz kimdən qayğı görmüşsünüz?*
3. *Hansı hərəkətinizi böyüklərə hörmət hesab edirsiniz?*
4. *Hansı yaşda olan insanlara daha çox qayğı lazımdır? Əsaslandırın.*

Müəllim müzakirələri yekunlaşdırır.

**Dərslik üzərində iş:** Şagirdlərin ifadəli oxusu əsasında 48-ci səhifədəki mətnin məzmunu ilə tanışlıq təmin olunur.
49-cu səhifədəki şəkillərin məzmununu şagirdlər sözlə təsvir edir, mənəviyyatla bağlı fərqləndirilmiş formada təqdim olunan fikirləri şərh edirlər.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər qayğının, hörmətin, mərhəmətin mənəvi borc olduğunu əsaslandırır, bu barədə təsəvvürlərini sadə dillə ifadə edirlər.

**Tətbiqetmə:** Metodik vəsaitin 51-ci səhifəsindəki çalışmalar yerinə yetirilir, bununla bağlı iş vərəqlərində müvafiq qeydlər aparılır və müəllim tərəfindən yoxlanılır.



Mənəviyyatımız

20 HÖRMƏT VƏ QAYĞI

Hörmət ətrafdakı insanlara göstərilən qayğıdır.

İstirahət günü idi. Biz sinif yoldaşlarımızla parka getmişdik. Ağacların altında oturacaqlar var idi. Biz də oturacaqda oturmuşduq. Digər oturacaqlarda boş yer yox idi. Bu zaman gördük ki, bir neçə yaşlı adam oturmaq üçün yer axtarır. Teymur cəld yerindən qalxdı və əyləşmək üçün həmin adamları oturacağa dəvət etdi. Onlar əyləşdilər və bizə dedilər:

— Hörmətiniz artıq olsun. Əhsən sizə tərbiyə verən valideynlərə və müəllimlərə!

Hamımızın əvəzinə Saleh dilləndi:

— Böyüklərə hörmət bizim borcumuzdur.

Ətrafdakılar da təbəssümlə bizə öz razılığını bildirdilər.

İnsanların qayğıya və hörmətə ehtiyacı var.

Hər hansı bir məktəblinin davranışında valideynin və müəllimin rolu nədir?

48



Bu şəkildə gördüklərinizi öz sözlərinizlə təsvir edin.

Böyüklərə hörmət, kiçiklərə qayğı hər kəsin mənəvi borcudur.

Qayğı kiminsə rahatlığı üçün çalışmaqdır.

Kimə daha çox qayğı göstərmək istəyirsiniz?

Kimlərin qayğısını daha çox hiss edirsiniz?

49

**Sual və tapşırıqlar:**

1) Hörmət edirəm / Qayğı göstərirəm → Kimə? → ____________ / ____________

2) Sizə daha çox kim qayğı göstərir? *(Qarşısında "+" işarəsi qoyun.)*

| | | | | | |
|---|---|---|---|---|---|
| Atam-anam | ☐ | Qonşularımız | ☐ | Müəllimlərimiz | ☐ |
| Sinif yoldaşlarımız | ☐ | Sürücülər | ☐ | Satıcılar | ☐ |

3) Niyə yaşlılara hörmət etmək borc sayılır?

_______________________________________________

4) Xəstəxana nə üçündür? (Ən dəqiq cavabı müəyyən edin.)
   A) həkimlərin xalat geyinməsi üçün
   B) dərmanlardan istifadə edilməsi üçün
   C) xəstələrin müalicə olunması üçün

5) Məktəblilərə dərsliklər pulsuz verilir. Bu nədir?
   A) qazanc B) qayğı C) ticarət

**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Mənəvi borcun mahiyyətini sadə şəkillərlə izah edir. | | | | |
| 2. Özünün mənəvi borclarını sadalayır. | | | | |
| 3. Mənəvi və maddi borclar fərqləndirilir. | | | | |
| 4. "Borc" anlayışını izah edir. | | | | |

## 21-ci dərs
## Sağlam həyat – xoşbəxt həyat

**Məzmun xətti:**
Sağlamlıq və təhlükəsizlik

**Alt standart:**
4.1.1.
– Sağlam həyat tərzinin şərtlərini (*təmizkarlıq, düzgün qidalanma, yuxu və istirahət*) sadalayır.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Hər kəsin sağlam olmaq hüququnun olduğunu;
∆ Hər kəsin öz sağlamlığını qoruya biləcəyini;
∆ İdmanın, istirahətin, yuxunun, düzgün qidalanmanın sağlamlığın əsas şərtlərindən olduğunu əsaslandırır.

**İnteqrasiya:**
Fəndaxili: 2.2.1.
Fənlərarası: F.t.: 1.1.1., 1.1.3.; Tex.: 3.1.1.

**İş forması:**
Böyük qruplarla iş, kiçik qruplarla iş

**İş üsulu:**
Müzakirə, müsahibə, söz assosiasiyaları

**Resurslar:**
Dərslik,
iş vərəqləri, şəkillər, lüğət

**Anlayışlar:**
*Sağlamlıq, mühafizə*

**Motivasiya:** Müəllim şagirdlərin diqqətini lövhədən asılmış şəkillərə yönəldir. Şəkillərdə idmanla məşğul olan, düzgün qidalanan, eləcə də soyuqdan büzüşən, idman edənlərə təəccüblə baxan, süfrə arxasında üzgünlüklə yemək yeyən insanlar təsvir olunmuşdur. Müəllim şagirdlərə: *"Sizcə, bunlardan hansılar öz sağlamlıqlarını qoruya bilər?"* – sualını verir və əlavə edir: Fikirlərinizi əsaslandırın.
Müəllim ifadə olunan fikirlərə münasibət bildirir.

**Tədqiqat sualı:** Sağlam olmağın yolları və əhəmiyyəti nədir?
Müəllim lövhəyə açar sözlər yazır: *idman, qida, rejim, qrip*

**Tədqiqatın aparılması:** Şagirdlər qruplar daxilində lüğətdən, açar sözlərdən, şəkillərdən istifadə etməklə tədqiqatlarını tamamlayırlar.

**İnformasiya mübadiləsi:** Şagirdlərin qruplar şəklində tədqiq etdikləri *təmizkarlıq, düzgün qidalanma, yuxu, istirahət* təmsilçilər tərəfindən elan olunur.

**İnformasiyanın müzakirəsi:** Müzakirə zamanı şagirdlər müəllimin bələdçiliyi və aşağıdakı yönəldici suallara cavab verməklə insanın sağlam olmağının yollarını və əhəmiyyətini öyrənirlər.
1. *Günün hansı vaxtında istirahət edirsiniz?*
2. *Sağlam olmaq üçün hansı qidalara üstünlük verirsiniz?*
3. *Sağlamlığınızı qorumağı kimdən öyrənmişsiniz?*
4. *"Sağlam bədəndə sağlam ruh olar" fikrinə münasibət bildirin.*

Müzakirələr müəllim tərəfindən yekunlaşdırılır və sistemləşdirilir.

**Dərslik üzərində iş:** 52-ci səhifədəki mətn oxunur və şərh olunur. Geyimin də sağlamlığın şərtlərindən olduğu vurğulanır. 53-cü səhifədəki şəkillərin mənası sözlə təsvir olunur.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər sağlamlığın insanın hüquqlarından biri olduğunu, təmizliyin, düzgün qidalanmanın, istirahətin, geyimin, idmanın onun əsas şərtlərindən olduğunu əsaslandırırlar.

**Tətbiqetmə:** Metodik vəsaitin 53-cü səhifəsindəki sual və tapşırıqların icrası iş vərəqlərində aparılır. Müəllim nəticələri yoxlayır və münasibət bildirir.


Rahatlığımız və təhlükəsizliyimiz

21 SAĞLAM HƏYAT – XOŞBƏXT HƏYAT

Sağlam olmaq hamının hüququdur.

Səhər yuxudan duran kimi musiqi sədaları altında idmanla məşğul oluram. Yuyunuram. Səhər yeməyimi yeyəndən sonra dişlərimi yuyuram. Ağartı yeməklərinə və meyvəyə üstünlük verirəm. Çünki bunlar daha faydalı qidalardır.

Geyimdən həm zövqlə, həm də mövsümə uyğun istifadə edirəm. Yuxu rejiminə də əməl edirəm. Ona görə də özümü həmişə gümrah hiss edirəm.

Təmizliklə sağlamlığın nə əlaqəsi var?

52


Təmizlik, düzgün qidalanma, yuxu, istirahət sağlamlığın əsas şərtlərindəndir.

Niyə hamı sağlam olmaq istəyir?

Sağlamlığınızı qorumaq üçün kimdən məsləhət alırsınız?

53

**Sual və tapşırıqlar:**

1) Yuxu rejimi haqqında yazın.

_______________________________________________

2) Düzgün qidalanmanın sağlamlığa təsiri nədən ibarətdir?

_______________________________________________

3) Sizcə, hansı daha gümrah və sağlamdır? (Qarşısında “+” işarəsi qoyun.)

 ☐

 ☐

4) Hər kəsin sağlamlığını, ilk növbədə, kim qorumalıdır?
A) valideyni B) özü C) həkim

## Qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Sağlamlıq və onun mühafizəsi haqqında ilkin təsəvvürlərini şərh edir. | | | | |
| 2. Sağlam həyat tərzinin şərtlərini (təmizkarlıq, düzgün qidalanma, yuxu və istirahət) sadalayır. | | | | |

## 22-ci dərs Geyimlərimiz və sağlamlığımız

**Məzmun xətti:**
Sağlamlıq və təhlükəsizlik

**Alt standart:**
4.1.2.
– Hava durumuna uyğun geyim seçiminin əhəmiyyətini sadə formada əsaslandırır.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Geyimi yalnız zövqə görə deyil, mövsümə görə də fərqləndirir.
∆ Sağlamlığının mühafizəsi üçün hava durumunu əvvəlcədən bilməyin əhəmiyyətini əsaslandırır.

**İnteqrasiya:**
Fəndaxili: 4.1.1.
Fənlərarası: Tex.: 3.1.1.

**İş forması:**
Böyük qruplarla iş, kiçik qruplarla iş

**İş üsulu:**
Suallar, problemli vəziyyət

**Resurslar:**
Dərslik, iş vərəqləri, şəkillər

**Motivasiya:** Müəllim yazı taxtasından əvvəlcədən hazırladığı və üzərinə aşağıdakı sözlər yazılmış vatman kağızını asır.

Sağlamlıq Hava durumu Geyim

Şagirdlərə suallar verir:
*1) Sağlamlığın hava durumu ilə əlaqəsi varmı?*
*2) Geyimin hava durumu ilə nə kimi bağlılığı var?*
Müəllim cavabları ümumiləşdirir.

**Tədqiqat sualı:** İnsan niyə bütün fəsillərdə eyni paltar geyinmir?

**Tədqiqatın aparılması:** Qruplara konkret tapşırıqlar yazılmış iş vərəqləri paylanılır:
*I qrup üçün: "Hava durumunu əvvəlcədən bilməyin əhəmiyyəti nədir?"*
*II qrup üçün: "Geyim zövqə görə, yoxsa hava durumuna görə seçilməlidir?"*
*III qrup üçün: "Geyim və hava durumunun sağlamlığa hansı təsirlərini bilirsiniz?"*

**İnformasiya mübadiləsi:** Hər qrupun təmsilçisi görülmüş iş barədə məlumat verir.

**İnformasiyanın müzakirəsi:** Müəllim şagirdlərin diqqətini həm də lövhədən asılmış şəkillərə yönəldir. Bu şəkillərdə həm qış fəslinə uyğun, həm də uyğun olmayan geyimdə insanlar təsvir olunmuşdur. Eyni zamanda hava durumuna görə də fərqli geyinən və fərqli əhvali-ruhiyyədə olan insanlar təsvir olunmuşdur. Müzakirə zamanı müəllim:
*1) "Hansı geyim mövsümə uyğun deyil?"*
*2) "Hansı geyim hava durumuna uyğun seçilməyib?"* sualları ilə şagirdlərə müraciət edir və yeri gələndə onlara bələdçilik edir. Müzakirələr müəllim tərəfindən yekunlaşdırılır.

**Dərslik üzərində iş:** Şagirdlər 54-cü səhifədəki mətnin məzmunu vasitəsilə bir ailənin timsalında hava durumu və geyimin sağlamlığa təsirini öyrənir, bu sahədə televiziyanın rolunu dərk edirlər. 55-ci səhifədəki şəkillərin mənasının izah olunması ilə hava durumunun, geyimin sağlamlıqla əlaqələndirilməsinə və problemin həllinə nail olunur.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər öyrənirlər ki, hava durumuna uyğun geyinmək sağlamlığı şərtləndirən amillərdəndir. Hər fəslin tələbinə görə geyim seçmək də sağlamlığın qorunması deməkdir.

**Tətbiqetmə:** Metodik vəsaitin 55-ci səhifəsindəki suallar cavablandırılır, tapşırıqların icrası iş vərəqlərində yerinə yetirilir, müəllim tərəfindən yoxlanılır.



Rahatlığımız və təhlükəsizliyimiz

22 GEYİMLƏRİMİZ VƏ SAĞLAMLIĞIMIZ

Axşamlar ailə üzvlərimizlə televiziya verilişlərini izləyirik. Maraqla izlədiyimiz verilişlərdən biri də hava haqqında məlumatdır. Bir gün əvvəl hava durumunun necə olacağını öyrəndikdə növbəti gün nə geyinəcəyimizi müəyyən edirik.

Elə vaxt olur ki, ailə üzvlərimizin bəziləri evdən səhər çıxır, axşam qayıdırlar. Xüsusən qış aylarında axşama doğru hava soyumağa başlayır. Odur ki hava durumuna görə geyinməsək, sağlamlığımız təhlükə qarşısında qala bilər.

Geyimimiz həm də hava durumuna görə olmalıdır.

Sabah hava durumunun necə olacağı haqqında məlumatı haradan öyrənirsiniz?

Hava durumu haqqında əvvəlcədən məlumat əldə etməyin əhəmiyyəti nədir?

54



Sağlamlığınızın qorunmasında geyiminizin rolu nədir?

55

**Sual və tapşırıqlar:**

1) Geyimlərim:
Soyuq hava şəraiti üçün İsti hava şəraiti üçün

______________________ ______________________

2) *Biz sonrakı günün hava durumunu televiziyanın hava haqqında …… öyrənirik.* Cümləni tamamlayın.
A) maraqlı konsertindən B) idman yarışından C) məlumat bürosundan

3) Qışda soyuq havada kim daha çox üşüyə bilər?
A) palto geyinməyən B) əlcək geyinməyən C) çay içməyən

4) Bu günün hava durumunu nədən öyrənmişsiniz?

______________________________________________

5) Səhər hava durumunun yağışlı olacağını biləndə mənzildən çıxarkən özünüz üçün əlavə nə götürərsiniz?

A)  B)  C) 

**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Hava durumuna uyğun geyilən əşyalarını fərqləndirir. | | | | |
| 2. Sağlamlığın mühafizəsi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir. | | | | |

## 23-cü dərs

# Ehtiyatlı olaq

**Məzmun xətti:**
Sağlamlıq və təhlükəsizlik

**Alt standart:**
4.2.2.
– Ətrafdakı şübhəli əşyalara toxunmağın və tanımadığı insanlarla ünsiyyətin təhlükəsini izah edir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Ətrafdakı şübhəli əşyaların və tanımadığı insanlarla ünsiyyətin həyat və sağlamlıq üçün təhlükə mənbəyi olduğunu izah edir.
∆ Şübhələndiyi əşya və tanımadığı insanlarla bağlı lazımı yerlərə məlumat verməyi dərk edir.

**İnteqrasiya:**
Fəndaxili: 4.2.1.
Fənlərarası:
F.t.: 1.1.1.

**İş forması:**
Cütlərlə iş

**İş üsulu:**
Problemli vəziyyət, müsahibə, rollar üzrə oyun

**Resurslar:**
Dərslik, iş vərəqləri, videomaterial, şəkillər

**Motivasiya:** Ekranda aşağıdakı məzmunda qısametrajlı material nümayiş etdirilir: *İki şagird yol kənarında qaz balonu görür və bu haqda müəllimlərinə, müəllimləri isə polisə məlumat verir. Təcili görülən tədbir nəticəsində partlayış təhlükəsi törədə bilən qaz balonu zərərsizləşdirilir. Şagirdlərə təşəkkür elan olunur.*
Şagirdlər aşağıdakı sualları cavablandırırlar:
1) Şagirdlər vaxtında müəllimlərinə xəbər verməsə idilər, nə baş verərdi?
2) Belə vəziyyətdə siz necə hərəkət edərdiniz?

**Tədqiqat sualı:** *İnsan niyə şübhələnir?*

**Tədqiqatın aparılması:** Şagirdlər cütlər şəklində fəaliyyət göstərirlər. Müəllim lövhədən müxtəlif məzmunlu nömrələnmiş şəkillər asır. Cütlərə şəkillərdəki təsvirlərə münasibət bildirmək tapşırılır. Onlara paylanmış iş vərəqlərində yazılmışdır:
... №-li şəkildə təsvir olunanlarla həyatda qarşılaşsaq, şübhələnərik. Çünki ...
... №-li şəkildə təsvir olunanlarla qarşılaşsaq, şübhələnmərik. Çünki ...

**İnformasiya mübadiləsi:** Hər cütdən bir nəfər öz tədqiqatları barədə qısa informasiya verir.

**İnformasiyanın müzakirəsi:** Müəllim cütlərin hər birinə müxtəlif suallarla müraciət edir:
*1) Nəyi şübhə mənbəyi hesab edirsiniz?*
*2) Həyatda ilk dəfə kimdən şübhələnmisiniz?*
*3) Tanımadığınız insanlarla niyə yaxınlıq etməyə ehtiyat edirsiniz?*
*4) Kimdən və nədənsə şübhələnməyin nə əhəmiyyəti var?*
*5) Azərbaycanın bəzi sərhəd bölgələrində hansı əşyalar insanların həyat və sağlamlığı üçün daha çox təhlükə mənbəyidir?*
*6) Məişətdə istifadə olunan avadanlıqlar nə zaman təhlükə yarada bilər?*
*7) Hansı hərəkətlər sağlamlığa təhlükə törədə bilər?*
Müəllim müzakirələri ümumiləşdirir və sistemləşdirir.

**Dərslik üzərində iş:** 56-cı səhifədəki mətn oxunur. Həm 56-cı, həm də 57-ci səhifədəki şəkillərin hər birinin mənası bir şagird tərəfindən izah olunur, digərləri münasibət bildirir.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər müəllimin köməyi ilə şübhəli əşyalara toxunmağın, tanımadığı insanlarla ünsiyyətin təhlükəsini izah edir, belə hallarda təhlükədən sovuşmağın mümkün olduğunu əsaslandırırlar.

**Tətbiqetmə:** Metodik vəsaitin 57-ci səhifəsindəki sual və tapşırıqlar iş vərəqlərində icra olunur və yoxlanılır.



Rahatlığımız və təhlükəsizliyimiz

**23 EHTİYATLI OLAQ**

Sərhəd bölgəsində yaşayan qohumumuz Vüsal tətildə valideynləri ilə bizə qonaq gəlmişdi. Mən onu şəhərimizin görməli yerlərinə aparmaq üçün metro ilə getməyin maraqlı olacağını düşündüm. O, metro polislərinin sərnişinlərin əl çantalarını, yüklərini diqqətlə yoxladıqlarını görüb məndən soruşdu:

— Polislər niyə sərnişinləri xüsusi cihazlarla belə diqqətlə yoxlayırlar?

Dedim:

— Bunlar hamısı insanların təhlükəsizliyi üçündür. Əgər kiminsə çantasında şübhəli əşya varsa, həmin cihaz onu aşkar edir. Bununla da təhlükələrin qarşısı alınır. Valideynlərimiz və müəllimlərimiz də bizə həmişə ehtiyatlı, diqqətli olmağı tapşırıblar.

Vüsal dedi:

— Bizə də tapşırıblar ki, şübhəli insan gördükdə ona yaxınlaşmaq, şübhəli əşya gördükdə ona toxunmaq olmaz. Həmin an oradan uzaqlaşmaq, valideynlərə, müəllimlərə məlumat vermək lazımdır. Məktəbimizin dəhlizində şübhəli əşyaların: sahibsiz bağlamaların, silah və sursatların şəkilləri çəkilmiş, altından isə adları yazılmışdır.

Əşyaların şübhəli olduğunu nədən bilirsiniz?

56

**Ehtiyat igidin yaraşığıdır.**
***(Atalar sözü)***

Şübhəli əşya və ya şübhəli insan gördükdə onlara yaxınlaşmaq həyat üçün təhlükəlidir. Belə hallarda 102 nömrəli telefona zəng etsəniz, arzuolunmaz bir işin qarşısının alınmasında köməkçi ola bilərsiniz.

**Yadda saxla!**

**Xidmətlər**

| | |
|---|---|
| Yanğınsöndürmə | 101 |
| Polis | 102 |
| Təcili tibbi yardım | 103 |
| Fövqəladə hallar | 112 |

**Şübhəli insan gördükdə hansı hisləri keçirirsiniz?**

**Ayıqlıq sözünün mənasını izah edin.**

**Şübhələriniz özünü doğrultmadıqda nə edirsiniz?**

57

**Sual və tapşırıqlar:**

1) Silah, mərmi, sahibsiz bağlamalar niyə təhlükə mənbəyi hesab olunur?

________________________________________

2) Ətrafdakı şübhəli əşyalardan qorunma yollarına aid misallar yazın.

1. __________________
2. __________________
3. __________________

3) Hər insanla ünsiyyət yaratmağın tərəfdarısınızmı?

Bəli (Niyə?) ____________________

Xeyr (Niyə?) ____________________

4) Aşağıdakı cümlədə nöqtələrin yerinə hansı ədədi əlavə etməklə cümləni tamamlamaq olar?

*Şübhəli əşya və insanlarla qarşılaşdıqda ... nömrəli telefonla zəng vurub polisə məlumat vermək lazımdır.*

A) 117 B) 221 C) 102

## Qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Sağlamlıq və təhlükəsizlik haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir. | | | | |
| 2. Həyat və sağlamlıq üçün təhlükə törədə bilən mənbələri sadalayır. | | | | |
| 3. Şübhələndiyi əşya və tanımadığı şübhəli insanlarla bağlı lazımı yerlərə məlumat verməyin yollarını öyrənir. | | | | |

## 24-cü dərs — Məişətdə təhlükə törədə bilən avadanlıqlar

**Məzmun xətti:**
Sağlamlıq və təhlükəsizlik

**Alt standart:**
4.2.1.
– Həyat və sağlamlıq üçün təhlükə törədə bilən məişət alət və avadanlıqlarını (*elektrik və qaz cihazları, alışdırıcı, kəsici və deşici alətlər*) sadalayır.

**Şagirdin nail olduğu bacarıqlar:**
∆ Təhlükə törədə biləcək məişət avadanlıqlarını fərqləndirir.
∆ Məişət avadanlıqlarından ehtiyatla istifadə etməyin qaydalarına yiyələnməyin sağlamlıq və həyat üçün vacib olduğunu anlayır.

**İnteqrasiya:**
Fəndaxili: 4.1.1.

**İş forması:**
Qruplarla iş

**İş üsulu:**
Müzakirə, müsahibə

**Resurslar:**
Dərslik, iş vərəqləri, şəkillər, kibrit, qayçı, bıçaq, alışqan

**Motivasiya:** Müəllim lövhə qarşısındakı stolun üstündən məişət avadanlıqlarını bir-bir götürüb şagirdlərdən onun adını və istifadə qaydalarını soruşur. Əlavə fikir söyləmək istəyənlərə də şərait yaradılır.

**Tədqiqat sualı:** Məişət avadanlıqlarından təhlükəsiz istifadə etmək üçün nəyi bilmək vacibdir?

**Tədqiqatın aparılması:** Qruplara iş vərəqləri paylanılır. Hər qrup üçün konkret tapşırıq müəyyən edilir.
*I qrup üçün: "Məişət avadanlıqları hansı təhlükələri törədə bilər?"*
*II qrup üçün: "Təhlükəli məişət avadanlıqları hansılardır?"*
*III qrup üçün: "Uşaqlar məişət avadanlıqlarından istifadə edərkən nəyi bilməlidirlər?"*
*IV qrup üçün: "Elektriklə işləyən hansı məişət avadanlıqlarından uşaqlar da sərbəst istifadə edə bilər? Niyə?"*

**İnformasiya mübadiləsi:** Qrup təmsilçiləri vasitəsilə bütün şagirdlər 4 qrupun hamısının əldə etdiyi informasiyalarla tanış olurlar.

**İnformasiyanın müzakirəsi:** Müzakirə zamanı şagirdlər məişət avadanlıqları, onlardan istifadə qaydalarına aid fikir söylədikdə müəllimin təqdim etdiyi şəkillərdən də istifadə edirlər.
Müəllim aşağıdakı müzakirə suallarından istifadə edir:
1) *Məişət avadanlıqlarının bir-birindən fərqi nədir?*
2) *Niyə insan həyatını məişət avadanlığı olmadan təsəvvür etmək mümkün deyil?*
3) *Mənzilinizdə istirahət zamanı hansı elektrik cihazlarından istifadə edirsiniz?*

Müəllim özü sinifdə olan məişət avadanlıqlarından istifadəyə dair bəzi qaydaları əyani şəkildə nümayiş etdirir və müzakirələr yekunlaşdırılır.

**Dərslik üzərində iş:** Məişət avadanlıqlarından təhlükəsiz istifadə ilə bağlı 58-ci səhifədəki mətn oxunur, sonra həm 58-ci, həm də 59-cu səhifədəki şəkillərin mənasını şagirdlər sözlə təsvir edirlər.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər müəllimin köməyi ilə öyrənirlər ki, məişət avadanlıqlarından istifadə edərkən onlardan istifadə qaydalarına əməl etdikdə həyat və sağlamlıq üçün təhlükə yaranmaz.

**Tətbiqetmə:** Metodik vəsaitin 59-cu səhifəsindəki tapşırıqlar iş vərəqlərində yerinə yetirilir və yoxlanılır.


Rahatlığımız və təhlükəsizliyimiz

24 MƏİŞƏTDƏ TƏHLÜKƏ TÖRƏDƏ BİLƏN AVADANLIQLAR

Bu gün elə bir ailə tapılmaz ki, məişət avadanlıqlarından istifadə etməsin. Çünki məişət avadanlıqları əl əməyini yüngülləşdirir, vaxta qənaət edir.

Mənzillərdə istifadə olunan elektrik və qaz cihazları, vedrələr, bıçaqlar, qayçılar məişət avadanlıqları və alətləridir. Ehtiyatsız istifadə edilsə, bunların hər biri həyat və sağlamlıq üçün təhlükə törədə bilər. Ona görə də onlardan istifadə qaydalarını bilmək lazımdır.

Mətbəxdə hansı avadanlıqlardan istifadə olunur?

58


Mənzildən çıxarkən nəyi unutmaq olmaz?

Kəsici və yandırıcı məişət avadanlıq və alətlərini sadalayın.

59

**Sual və tapşırıqlar:**

1) Kəsici alət hansı təhlükələri törədə bilər?
   ________________________________

2) Bıçaq və qayçı şəkli çəkin.

3) Məişət avadanlıqlarından istifadənin üç məqsədini yazın.
   1. ______________ 2. ______________ 3. ______________

4) Mənzildə qaz sobasının yeri haradadır?
   A) yataq otağında B) mətbəxdə C) dəhlizdə

5) Sizin ailənizdə hansı məişət avadanlıqlarından uşaqların istifadə etməsinə icazə verilmir?

## Qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Həyat və sağlamlıq üçün təhlükə törədən mənbələri tanıyır. | | | | |
| 2. Həyat və sağlamlıq üçün təhlükə törədə bilən məişət alət və avadanlıqlarını (elektrik və qaz cihazları, alışdırıcı, kəsici və deşici alətləri) tanıyır. | | | | |
| 3. Həyat və sağlamlıq üçün təhlükə törədə bilən məişət alət və avadanlıqlarını (elektrik və qaz cihazları, alışdırıcı, kəsici və deşici alətləri) sadalayır. | | | | |

## 25-ci dərs

## Yolumuz uğurlu olsun!

**Məzmun xətti:**
Sağlamlıq və təhlükəsizlik

**Alt standart:**
4.2.3.
– Sadə yol hərəkəti qaydalarını (*səki və yolun kənarı ilə hərəkət etmək, işıqforun işarələrinə əməl etmək*) izah edir.
4.2.4.
– Nəqliyyat vasitələrini (lift, eskalator, avtomobil, avtobus, qatar, gəmi, təyyarə) tanıyır.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Səkinin piyadalar üçün yolun təhlükəsiz hissəsi olduğunu;
∆ İşıqforun rənglərinin mənasını;
∆ İşıqfordan istifadə etməyin təhlükəsiz olduğunu izah edir.
∆ Nəqliyyat vasitələrini bir-birindən fərqləndirir.

**İnteqrasiya:**
Fəndaxili: 4.1.1.
Fənlərarası: Tex.: 3.1.1.

**İş forması:**
Böyük qruplarla iş

**İş üsulu:**
Klaster (şaxələndirmə), beyin həmləsi

**Resurslar:**
Dərslik, iş vərəqləri, şəkillər, videomaterial

**Motivasiya:** Müəllim elektron lövhədə piyadaların yol hərəkəti qaydaları ilə bağlı videomaterial nümayiş etdirir. Bir şagird videomaterialı şərh edir. Müəllim elektron lövhədə nümayiş etdirilən səki, işıqfor barədə şagirdlərin məlumatlarını ümumiləşdirir.

**Tədqiqat sualı:** Yol hərəkəti qaydaları nə üçündür?

**Tədqiqatın aparılması:** Müəllim lövhədə klaster üsuluna uyğun dairələr çəkir.







İki qrupa bölünən şagirdlər iş vərəqlərində dairənin mərkəzində yazılmış anlayışlar: səki və işıqfora aid əlaqəli sözləri xətlərin qarşısında qeyd edirlər.

**İnformasiya mübadiləsi:** Hər qrupun təmsilçisi iş vərəqlərinə qeyd edilən sözləri oxuyur *(sözlər təxminən aşağıdakılardan ibarət ola bilər: piyada, yolun sağı, qırmızı, sarı, yaşıl və s.)*

**İnformasiyanın müzakirəsi:** Müəllim yönəldici suallarla şagirdlərə müraciət edir:
1) *Küçədə işıqfor işləməsə, nə baş verər?*
2) *İşıqforun hansı rəngdə olan lampası yandıqda hərəkət dayanır?*
3) *Niyə piyadalar səki ilə hərəkət edirlər?*
Suallara verilən cavablar ümumiləşdirilir.

**Dərslik üzərində iş:** Bir nəfər şagird 60-cı səhifədəki mətni oxuyur. Sonra bir neçə şagird həmin mətni şərh edir. 61-ci səhifədəki "Yolu keçərkən əvvəlcə sola, sonra sağa, sonra yenə sola baxmalıyıq" fikri müəllimin köməyi ilə izah olunur. Şagirdlər hər iki səhifədəki şəkillərə münasibət bildirirlər.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər öyrənirlər ki, yol hərəkəti qaydalarına əməl etmək lazımdır. Çünki bu qaydalar sağlamlığımız və təhlükəsizliyimiz üçündür. Yolun səki hissəsi piyadaların gediş-gəlişinə xidmət edir. İşıqfor həm nəqliyyatın, həm də piyadaların hərəkətini tənzimləyir.

**Tətbiqetmə:** Metodik vəsaitin 61-ci səhifəsindəki sual və tapşırıqların cavablandırılması ilə bağlı qeydlər iş vərəqlərində aparılır. Tapşırıqların icrası müəllim tərəfindən yoxlanılır.


Rahatlığımız və təhlükəsizliyimiz

25 YOLUMUZ UĞURLU OLSUN!

Fəridlə Aytən hər gün məktəbə gedəndə nəqliyyatın hərəkəti istiqamətində yolun sağı ilə gedirlər.

Çünki yolun sağındakı və solundakı səkilər piyadaların gediş-gəlişi üçündür. İşıqfor və yol nişanları həm piyadaların, həm də nəqliyyatın hərəkətinin təhlükəsizliyinə xidmət edir. İşıqforda üç rəngdə lampalar yanır.

Şəkildə gördüklərinizin adlarını söyləyin.

60

Dur!
Hazırlaş!
Keç!

Yolu keçərkən ehtiyatlı və diqqətli olmalıyıq.

Yol nişanları həyatımızın təhlükəsizliyi üçündür. Onlara əməl etmək lazımdır.

Şlaqbaumlu dəmiryol keçidi
Şlaqbaumsuz dəmiryol keçidi
Təmir işləri
Digər təhlükələr
Uşaqlar
İşıqfor
Velosiped zolağı
Piyada zolağı
Əlillər
Avtobus dayanacağı
İlk tibbi yardım məntəqəsi

Yol nişanları olmasa, nə baş verər?

Məktəbə gedərkən yol kənarında bu nişanların hansı ilə rastlaşırsınız?

61

**Sual və tapşırıqlar:**

1) Siz məktəbə gedəndə yolun hansı hissəsi ilə getsəniz, təhlükəsiz olar?
A) sağ tərəfi ilə B) sol tərəfi ilə C) ortası ilə

2) Yolların kənarına quraşdırılan işıqforlar nə üçündür?
A) yolu işıqlandırmaq üçün B) hərəkəti tənzimləmək üçün
C) sürücüləri cərimələmək üçün

3) Təhlükəli olanı müəyyən edin.

A) 

B) 

C) 

4) *Yol nişanlarına əməl etmək hər bir insanın borcudur.* Bu cümlənin mənasını izah edin.

## Qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Sadə yol hərəkəti qaydalarını (səki və yolun kənarı ilə hərəkət etmək, işıqforun işıqlarına əməl etmək) sadalayır. | | | | |
| 2. Yol hərəkəti qaydalarının pozulmasının həyat üçün təhlükə mənbəyi olduğunu anlayır. | | | | |
| 3. Nəqliyyat vasitələrini (lift, eskalator, avtomobil, avtobus, qatar, gəmi) tanıyır və fərqləndirir. | | | | |

## 26-cı dərs

## Təbii hadisələr

**Məzmun xətti:**
Sağlamlıq və təhlükəsizlik

**Alt standart:**
4.3.1.
Təbii fövqəladə hadisələri (*daşqın, subasma, qasırğa, ildırım, zəlzələ, torpaq sürüşməsi, qar uçqunu) və texnogen qəzaları (partlayış, yanğın, böyük nəqliyyat qəzası, ətraf mühitin zəhərli maddələrlə çirklənməsi*) təsvirlərdə tanıyır.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Bəzi təbii hadisələrlə bağlı ilkin təsəvvürlərə malik olur.
∆ Təbii hadisələrlə texnogen hadisələri bir-birindən fərqləndirir.

**İnteqrasiya:**
Fəndaxili: 4.3.2.
Fənlərarası: T.i.: 3.1.2.

**İş forması:**
Böyük qruplarla iş

**İş üsulu:**
Suallar, müzakirə

**Resurslar:**
Dərslik, iş vərəqləri, şəkillər, lüğət

**Motivasiya:** Müəllim "zəlzələ", "ildırım", "yanğın", "qəza" anlayışlarını sadalayır və şagirdlərdən bunların hansı biri haqqında məlumata malik olmalarını soruşur. Sorğunu cavablandırmaq üçün şagirdlərin fəaliyyətini lüğətdən istifadəyə yönəldir. Şagirdlər yuxarıdakı anlayışlarla bağlı bildiklərini söyləyirlər. Müəllim şagirdlərin söylədiklərini ümumiləşdirir.

**Tədqiqat sualı:** Baş verən hadisələr niyə müxtəlif olur?

**Tədqiqatın aparılması:** Böyük qruplar halında fəaliyyət göstərən şagirdlərə üzərində həm təbii hadisələrin, həm də texnogen qəzaların təsvir olunduğu şəkillər verilir. Qruplara şəkildəki hadisələrin xüsusiyyətlərini və onların adlarını müəyyən etmək tapşırılır.

**İnformasiya mübadiləsi:** Təmsilçilərin təqdimatında qrup üzvləri bir-birinin işləri ilə tanış olurlar.

**İnformasiyanın müzakirəsi:** Müəllim şagirdlərin diqqətini onlara təqdim olunan şəkildəki hadisələrə yönəldir. Bunun üçün aşağıdakı yönəldici suallardan istifadə edir.
1) *Niyə bu şəkildə gördüyünüzü qar uçqunu adlandırırsınız?*
2) *Hansı hadisələr insanlar tərəfindən törədilə bilər?*
3) *Niyə zəlzələ təbii hadisə sayılır?*
4) *Təbii fəlakətlə bağlı məlumat eşitdikdə hansı hisləri keçirirsiniz?*
5) *Fırtınanı təsvir etsəniz, hansı rənglərdən istifadə edərsiniz?*

Müəllim şagirdlərin təsəvvürlərini genişləndirmək üçün müzakirə zamanı haqqında söhbət gedən hadisə və qəzalar barədə əlavə məlumat verə bilər.

**Dərslik üzərində iş:** 63-cü səhifədəki şəkillər əsasında təbii hadisələrin və texnogen qəzaların adları deyilir, onların müxtəlifliyi əsaslandırılır.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər müəllimin köməyi ilə təbii fövqəladə hadisələri təsvirlərdə tapır, baş verən hadisələrin xüsusiyyətlərinə görə müxtəlif olduğunu, bəzi təbii hadisələrin və qəzaların törədəcəyi fəlakətlərin qarşısının alınmasının mümkün olduğunu anlayırlar.

**Tətbiqetmə:** Metodik vəsaitin 63-cü səhifəsindəki sual və tapşırıqlar cavablandırılır. Yazılı tapşırıqlar iş vərəqlərində icra olunur və yoxlanılır.



Rahatlığımız və təhlükəsizliyimiz

26 TƏBİİ HADİSƏLƏR

Təbii hadisələr insanlardan asılı olmadan baş verir.

Şəkildə gördüyünüz hadisələrə ad verin.

**Bilirsinizmi?**

İnsanlar bəzi təbii hadisələrin qarşısını müəyyən qədər ala bilirlər:

- Torpaq sürüşməsinin qarşısını almaq üçün ağaclar əkirlər.
- Daşqının və subasmanın qarşısını almaq üçün bəndlər çəkirlər.
- İldırımötürücülər vasitəsilə ildırımı zərərsizləşdirirlər.

62



İnsanlardan asılı olaraq baş verən qəzalara texnogen qəzalar deyilir.

İnsanlar həyatda qanunlara və qaydalara əməl etsələr, yaşayış üçün təhlükə törədən heç bir texnogen qəza baş verməz.

Qəzalardan uzaq olmaq üçün diqqətli və ayıq olmaq lazımdır. Şəkillərdə gördüyünüz hadisələrlə qarşılaşdıqda dərhal 112 nömrəli telefona zəng edib məlumat verin. Bu hər kəsin insanlıq borcudur.

**Avtomobil qəzası niyə təbii hadisə sayılmır?**

63

## Sual və tapşırıqlar:

1) İldırım çaxanda hansı hisləri keçirirsiniz?

____________________________

2) Şahidi olduğunuz bir hadisənin səbəbini yazın.

____________________________

3) Yanğının baş verməsinə nə səbəb ola bilər?
A) telefonun işləməməsi  B) suyun olmaması  C) ehtiyatsızlıq

4) Nə zaman **112** nömrəli telefona zəng etmək lazımdır?
A) hava soyuyanda  B) daşqın baş verəndə  C) avtobus gecikəndə

## Qiymətləndirmə

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir. | | | | |
| 2. Təbii fövqəladə hadisələri (daşqın, subasma, qasırğa, ildırım, zəlzələ, torpaq sürüşməsi, qar uçqunu) və texnogen qəzaları (partlayış, yanğın, böyük nəqliyyat qəzası, ətraf mühitin zəhərli maddələrlə çirklənməsi) təsvirlərdə tanıyırlar. | | | | |
| 3. Təbii fəlakətlə texnogen qəzanı bir-birindən fərqləndirir. | | | | |

## 27-ci dərs
## Qəzalardan müdafiə vasitələri

**Məzmun xətti:**
Sağlamlıq və təhlükəsizlik

**Alt standart:**
4.3.2.
– Mülki müdafiə siqnallarını və qəzalardan mühafizə vasitələrini (əleyhqaz, respirator, yanğınsöndürmə balonu, su, qum) tanıyır.
4.3.3.
– Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə su, qum, respiratordan istifadə bacarıqlarını nümayiş etdirir.

**Şagirdin nail olacağı bacarıqlar:**
∆ Qəzalardan mühafizə vasitələrindən istifadə etməyi bacarır.

**İnteqrasiya:**
Fəndaxili: 4.3.1.

**İş forması:**
Qruplarla iş

**İş üsulu:**
Beyin həmləsi, suallar, müzakirə

**Resurslar:**
Dərslik, iş vərəqləri, şəkillər, videomaterial, əleyhqaz, respirator

**Motivasiya:** Elektron lövhədən istifadə etməklə yanğınsöndürənlərin işindən bəhs edən videomaterial göstərilir. Şagirdlər videomaterialla bağlı fikir söyləyirlər. Müəllim yanğınsöndürmə zamanı istifadə olunan vasitələrin adlarını şagirdlərdən soruşur. Sonra o, məktəbin dəhlizindəki yanğınsöndürmə vasitələrini (*qum, su, yanğınsöndürmə balonu*) şagirdlərə nümayiş etdirir və onlardan nə məqsədlə istifadə edildiyini şagirdlər söyləyirlər.

**Tədqiqat sualı:**
Siz yanğınsöndürən olsanız, hansı işləri görərsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat zamanı qruplara lövhədən asılmış şəkillərdən də istifadə etmək məsləhət görülür.

**İnformasiya mübadiləsi:** Hər qrupun təmsilçisi yanğınsöndürənlərin işləri barədə əldə etdikləri məlumatları elan edirlər.

**İnformasiyanın müzakirəsi:** Müzakirə zamanı şagirdlər müəllimin bələdçiliyi ilə əyani şəkildə əleyhqazdan, respiratordan, qumdan, sudan istifadə etməyi nümayiş etdirir və əsaslandırırlar. Müəllim aşağıdakı suallardan da istifadə edir:

1. *Yanğının baş verməməsi üçün nə etmək lazımdır?*
2. *Yanğını ancaq yanğınsöndürənlərmi söndürməlidir?*
3. *Yanğınsöndürənlər hansı xüsusiyyətə malik olurlar?*
4. *Yay tətilini istirahət yerlərində təhlükəsiz keçirmək üçün hansı qaydalara əməl etmək lazımdır? Niyə?*

Cavablar ümumiləşdirilir.

**Dərslik üzərində iş:** 64-cü səhifələrdəki mətnlə tanış olunur və şəkillərin mənası izah edilir.

**Ümumiləşdirmə və nəticə:** Şagirdlər müəllimin köməyi ilə əleyhqazdan, respiratordan istifadə etməyi öyrənir, qəzalar zamanı mühafizə vasitələrindən yararlanmağı bacarmağın sağlamlıq və təhlükəsizlik üçün əhəmiyyət daşıdığını əsaslandırırlar.

**Tətbiqetmə:** Metodik vəsaitin 65-ci səhifəsindəki suallar cavablandırılır. Yazılı tapşırıqlar iş vərəqlərində yerinə yetirilir.
68-ci səhifədəki fəsildə "Bu il öyrəndiklərim" sorğusuna şagirdlərin münasibəti fərdi yoxlanılır.



Rahatlığımız və təhlükəsizliyimiz

27 QƏZALARDAN MÜDAFİƏ VASİTƏLƏRİ

Bizim məktəbimizin bütün mərtəbələrində qum dolu yeşiklər, xüsusi su xətti, yanğınsöndürmə balonları var. Doğrudur, bu günə qədər onlardan istifadə edilməyib. Çünki buna ehtiyac olmayıb.

Ancaq müəllimimiz əleyhqazdan, sudan, qumdan, yanğınsöndürmə balonundan istifadə qaydalarını hamımıza öyrədib.

Siz indiyə qədər hansı yanğınsöndürmə vasitəsindən istifadə etmişsiniz? Niyə?

Əleyhqazın əhəmiyyəti nədir?

64



65

**Sual və tapşırıqlar:**

1) Şəkildə gördüklərinizin adlarını yazın.










_______________ _______________ _______________ _______________

2) Atalar niyə deyiblər ki, "Ehtiyat igidin yaraşığıdır"?

____________________________________________________________

3) Nə zaman qəzalardan mühafizə vasitələrinə ehtiyac duyulur?

A) yanğın baş verəndə B) istirahət edəndə C) mətbəxdə xörək bişirəndə

**Qiymətləndirmə**

| Qiymətləndirmə meyarları | Kafi | Yaxşı | Əla | Nəticə |
|---|---|---|---|---|
| 1. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətdə özünümühafizə bacarıqları nümayiş etdirir. | | | | |
| 2. Mülki müdafiə siqnallarını və qəzalardan mühafizə vasitələrini (əleyhqaz, respirator, yanğınsöndürmə balonu, su, qum) tanıyır. | | | | |

# Kiçik summativ qiymətləndirmə nümunəsi

**Məqsəd:**
"Mənəviyyat", "Sağlamlıq və təhlükəsizlik" məzmun xətti üzrə standartlara uyğun tədris edilən mövzular əsasında əldə olunan şagird nailiyyətlərinin yoxlanılması, qiymətləndirilməsi.

**Yoxlanılan və qiymətləndirilən şagird nailiyyətləri:**
∆ Ünsiyyət mədəniyyəti haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.
∆ Etiketdənkənar davranışları fərqləndirir.
∆ İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir.
∆ Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir.
∆ Şəxsiyyəti formalaşdıran sadə keyfiyyətləri sadə şəkildə şərh edir, mənəviyyata zidd xüsusiyyətlərə münasibət bildirir.
∆ Mənəvi borc haqqında təsəvvürlərini ifadə edir.
∆ Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.
∆ Həyat və sağlamlıq üçün təhlükə törədən mənbə və obyektləri tanıyır, nəzərə alır.
∆ Sadə yol hərəkət qaydalarını izah edir.
∆ Fövqəladə hallar barədə ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.

**İş forması:**
Bütün siniflə iş

**İş üsulu:**
Suallar, müzakirə

**Resurslar:**
İş vərəqləri, müxtəlif məzmunlu yoxlama vasitələri

**Dərsin gedişi:**
Müəllim sonuncu summativ qiymətləndirmənin məqsədi, şagirdlərinə güvənməsi, şagirdlərin də özünə güvənməsi, diqqətli olmaları, vaxtdan səmərəli istifadə etmələri, bir-birlərinə mane olmamaları və s. barədə yığcam söhbət təşkil edir.

**Tapşırığın icrası:**
Şagirdlərin hər birinə metodik vəsaitin 66-67-ci səhifələrindəki yoxlama vasitələrinin forma və məzmununa uyğun tapşırıqların əhatə olunduğu iş vərəqləri paylanılır. Həmin tapşırıqlar mürəkkəblik dərəcəsinə görə üç cür olur. Tapşırıqların icrasına ayrılmış müddətin başlanma və qurtarma vaxtı lövhədə yazılır.

**Tapşırıqların müzakirəsi:**
İcra vaxtı bitdikdən sonra tapşırıqlar yoxlanılır, müzakirə edilir, qiymətləndirilir və qiymətlər elan olunur.

**Qiymətləndirmə vasitələri**

**1. *Doğruçuluq* sözünə yaxın mənalı olan söz hansıdır?**

A) düzgünlük B) xəbərçilik C) yalançılıq

**2. İnsanlar bir-birindən nə zaman üzr istəyirlər?**

A) yorulanda
B) qarşısındakı insan yalnış hərəkət etdikdə
C) biri başqasına qarşı yanlış hərəkət etdikdə

**3. Azərbaycan Respublikasında din seçmək ... cümləsini hansı sözlə tamamlamaq daha doğrudur?**

A) sərbəstdir B) təhlükəlidir C) mümkün deyil

**4. Daha çox kimin qayğısına qalmaq istəyirsiniz? Niyə?**

______________________________________________

**5. Bir nəfər sağlam olmaq üçün sizdən məsləhət istəsə, ona nə deyərsiniz?**

A) Çox qida qəbul edin. B) Gün rejiminə əməl edin. C) Yatmağa üstünlük verin.

**6. Baba axşam televizora baxandan sonra ailə üzvlərimizə dedi ki, səhər evdən çıxanda özünüzlə çətir götürün. Baba televizora baxanda nə eşitmişdi?**

A) külək əsəcəyini B) yollarda tıxac olacağını C) yağış yağacağını

**7. Təhlükə mənbəyi hesab olunan beş varlığın adını əlifba sırası ilə yazın.**

______________________________________________

**8. Yol hərəkəti qaydalarına əməl etməyin faydalarına aid iki nümunə yazın.**

______________________________________________

**9. Təbii hadisəni müəyyən edin.**

A) 

B) 

C) 

**10. Yanğını söndürmək üçün alovun üstünə tökmək olmaz:**

A) suyu B) qumu C) nefti

**Qiymətləndirmə**

| **Qiymətləndirmə meyarları**<br>*Öyrəndiklərini:* | **Kafi** | **Yaxşı** | **Əla** | **Nəticə** |
|---|---|---|---|---|
| 1. Əsaslandırır. | | | | |
| 2. Müqayisə edir. | | | | |
| 3. Tətbiq edir. | | | | |
| 4. Sadə şəkildə şərh edir. | | | | |

Summativ qiymətləndirmənin nəticələri şagird nailiyyətinin illik qiymətləndirilməsi zamanı nəzərə alınır.

# Bu il öyrəndiklərim

1) Müəllimlərimdən:

2) Valideynlərimdən:

3) Şagird yoldaşlarımdan:

4) Kitablardan:

**Öyrəndiklərimizə görə özünüzü ən çox kimə borclu hesab edirsiniz? (Niyə?)**

1) Müəllimlərimə; ona görə ki, ...

2) Valideynlərimə; ona görə ki, ...

3) Şagird yoldaşlarıma; ona görə ki, ...

4) Kitablara; ona görə ki, ...

## Yay tətilində görəcəyim işlər

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

## Sağlam, təhlükəsiz, xoşbəxt yaşamaq istəyənlərə nələri məsləhət görürsünüz?

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

## Kiçik summativ qiymətləndirmə nümunələri

1. Daş niyə canlı varlıq deyil?
   A) üzmədiyi üçün B) nəfəs almadığı üçün C) hərəkət etmədiyi üçün
2. Azərbaycan Respublikasında şagirdlərə nə pulsuz paylanır?
   A) ərzaq B) dərslik C) geyim
3. Ətraf mühit amillərinə aid 4 nümunə yazın.

______________________________________________

4. Məktəbin nizam-intizam qaydalarına bütün şagirdlərin əməl etməsi lazımdır. Niyə?

______________________________________________

5. Respublikamızda əhalinin əksəriyyəti hansı dinə sitayiş edir və onların əsas ibadət yeri haradır?
   A) xristianlıq – kilsə B) islam – məscid C) yəhudi – sinaqoq
6. Nöqtələrin yerinə uyğun sözü müəyyən edin.

   ... < mövsümə görə / zövqə görə / dəbə görə > seçilir.

   A) Ərzaq B) Geyim C) Dostluq
7. "Yaxşıdan yaxşı ol, ellər içində" fikrinin mənasını açıqlayın.

______________________________________________

8. Avtomobil qəzası niyə təbii hadisə sayılmır?

______________________________________________

9. Ailə də kollektivdir, məktəb də. Bəs bunların əsas fərqi nədir?

______________________________________________

10. Yaşadığınız ərazinin sadə coğrafi təsvirini verin.

______________________________________________

## İstifadə edilmiş ədəbiyyat


1. “Dərslik necə olmalıdır?”. Bakı, 2003.
2. T.C. Milli Egitim Bakanlığı. “Talim və Terbiye Kurulu Başkanlığı. İlk öğretim Türkce Dersi” (1-5 sınıflar). Öğretim Proqramı və Klavuzu. Ankara, 2005.
3. Paşayeva Ə., Rüstəmov F. “Pedaqogika. Yeni kurs”. Bakı, “Təhsil”, 2006.
4. “Həyati bacarıqlara əsaslanan təhsil” (Orta ümumtəhsil məktəblərinin ibtidai sinif müəllimləri üçün tədris vəsaiti). Bakı, 2006.
5. Veysova Z. “Fəal / interaktiv təlim: müəllimlər üçün vəsait”. Bakı, 2007.
6. “Ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün fənn kurikulumları”. Bakı, “Təhsil”, 2008.
7. K.Quliyeva. “İnteraktiv təlim ensiklopediyası”. Bakı, 2009.
8. “Azərbaycan Respublikasında ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası”. “Azərbaycan müəllimi” qəzeti, 6 fevral 2009.
9. T.Hacıyeva. “İbtidai təhsil pilləsində məktəbdaxili qiymətləndirmənin aparılması qaydaları”. Bakı, 2011
10. “Pedaqoji testlərin nəzəriyyə və praktikasına giriş”. Bakı, 2011

# Kitabın içindəkilər

Giriş ........ 3-7

**Yaşadığımız dünya**
1-ci dərs. Həyat varlıqlardan ibarətdir ........ 8-9
2-ci dərs. Mən bunların adını bilirəm ........ 10-11
3-cü dərs. Dünyamız – Yer kürəsi ........ 12-13
4-cü dərs. Canlı varlıqlar ........ 14-15
5-ci dərs. Canlıları yaşadanlar ........ 16-17
6-cı dərs. Təmiz ətraf mühit uğrunda ........ 18-19

**Həyatımız**
7-ci dərs. Bizim ailə ........ 20-21
8-ci dərs. Kollektiv – birgə fəaliyyət göstərənlər ........ 22-23
9-cu dərs. Büdcə ........ 24-25
10-cu dərs. Gün rejimim ........ 26-27

**Azərbaycanımız**
11-ci dərs. Azərbaycanın pul nişanları ........ 28-29
12-ci dərs. Dövlət rəmzlərimiz ........ 30-33
13-cü dərs. Məktəbimizin nizam-intizam qaydaları ........ 34-35
Kiçik summativ qiymətləndirmə nümunəsi ........ 36-37
14-cü dərs. Məktəbdəki hüquqlarımız ........ 38-39

**Mənəviyyatımız**
15-ci dərs. Davranış da mədəniyyətdir ........ 40-41
16-cı dərs. Yanlış davranışlar ........ 42-43
17-ci dərs. İnsanın ən yaxşı xüsusiyyətləri ........ 44-45
18-ci dərs. Xoşlamadığım xüsusiyyətlər ........ 46-47
19-cu dərs. Din ........ 48-49
20-ci dərs. Hörmət və qayğı ........ 50-51

**Rahatlığımız və təhlükəsizliyimiz**
21-ci dərs. Sağlam həyat – xoşbəxt həyat ........ 52-53
22-ci dərs. Geyimlərimiz və sağlamlığımız ........ 54-55
23-cü dərs. Ehtiyatlı olaq ........ 56-57
24-cü dərs. Məişətdə təhlükə törədə bilən avadanlıqlar ........ 58-59
25-ci dərs. Yolumuz uğurlu olsun! ........ 60-61
26-cı dərs. Təbii hadisələr ........ 62-63
27-ci dərs. Qəzalardan müdafiə vasitələri ........ 64-65
Kiçik summativ qiymətləndirmə nümunəsi ........ 66-67

Bu il öyrəndiklərim ........ 68
İstifadə edilmiş ədəbiyyat ........ 70

# Həyat bilgisi 1

Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün
"Həyat bilgisi" fənni üzrə

MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT

Müəlliflər:
İbrahimova Aybəniz Paşa qızı
İbrahimov Saməddin Həsən oğlu

ŞƏRQ-QƏRB NƏŞRİYYATI

www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

Buraxılışa məsul: Sevil İsmayılova
Dizayner: Elşən Qurbanov
Rəssamlar: Mərziyə Tağıyeva
Humeyra Hüseynova
Səhifələyici: Xəqani Fərzalıyev
Baş redaktor: Samirə Bektaşi
Texniki direktor: Allahverdi Kərimov
Nəşriyyat direktoru: Kəmalə Qarayeva

Format 57x82 1/8. Ofset çapı.
Fiziki çap vərəqi 9. Sifariş 16021. Tiraj 4350

ŞƏRQ-QƏRB

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17.
Tel.: (+99412) 374 83 43
(+99412) 374 73 84

Pulsuz